# SEPARATİZMİN BÜTÜN TƏZAHÜRLƏRİ QƏBULEDİLMƏZDİR

Bölgədəki proseslərin yönləndirilməsi və separatizmin kökünün kəsilməsində əsas oyunçu Bakıdır. Bu mövqe Prezident İlham Əliyevin ABŞ Dövlət katibi Antoni Blinkenlə danışığı zamanı bir daha Vaşinqtonun diqqətinə çatdırılıb.



Prezident İlham Əliyev bildirib ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni manеə və əngəllər yaradır.

Dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır. Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən “Laçın” sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi daxili işlərimizə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir.

SƏHİFƏ 3-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

9 SENTYABR ŞƏNBƏ 2023 | 33 (4135) Qiyməti - 40 qəpik www.kaspi.az



## “G20” SAMMİTİ: ZİDDİYYƏTLƏR ARTIR

Sentyabrın 9-10-da Yeni Dehlidə keçiriləcək sammitdə mühüm məsələlərin müzakirəsi gözlənilir. Lakin əvvəlcə Rusiya, ardınca da Çin lideri sammitdə iştirak etməyəcəklərini bildiriblər.

SƏHİFƏ 10-da



## XARİCDƏN GƏLƏN PULLAR AZALIB

Azərbaycana xaricdən pul köçürmələrinin həcmi azalıb. Ekspertlər bildirirlər ki, ölkəmizlə bağlı bu məsələdə ən böyük pay Rusiyanındır. Müharibə və tətbiq edilən sanksiyalar nəticəsində bu ölkədə yaşayan soydaşlarımızın da qazancı azalır.

SƏHİFƏ 11-də



## ROMANTİK MUSİQİNİN İSTİNAD YERİ

Görkəmli macar bəstəkarı və pianoçusu Ferens Listin irsi onun Budapeştdəki ev muzeyində xüsusi həssaslıqla qorunur. Pilləri qalxan ziyarətçiləri muzeyin qapısında bəstəkarın böyük portreti qarşılayır.

SƏHİFƏ 13-də

## İRƏVANIN MƏKRLİ PLANLARI FAKTLARLA SÜBUT OLUNUR



# ERMƏNİSTAN YENİ HƏRBİ TƏXRİBATA HAZIRLAŞIR

Gərginlik həm şərti sərhəddə, həm də ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin yerləşdiyi təmas xəttində müşahidə edilir. Əldə olunmuş faktlar İrəvanın sülh pərdəsi adı altında yenidən müharibə və hərbi təxribatlar taktikasını seçdiyini söyləməyə ciddi əsas verir.

### İRƏVANIN “YENİDƏN MÜHARİBƏ” TAKTİKASI

Ermənistanın Azərbaycan əleyhinə hərbi təxribatları artmaqdadır. Gərginlik həm şərti sərhəddə, həm də ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin yerləşdiyi təmas xəttində müşahidə edilir. Faktlar İrəvanın yenidən müharibə və hərbi təxribatlar taktikasını seçdiyini söyləməyə ciddi əsas verir.

### BAKI PROSESLƏRİ DİQQƏTLƏ İZLƏYİR

Prezidentin köməkçisi Hikmət Hacıyevin sözlərinə görə, bizim strategiyamız Azərbaycana qarşı hər hansı silahlı və ya qeyri-qanuni hərbi hərəkətlərin və ya təxribatların qarşısını almaq və zərərsizləşdirməkdən ibarətdir.

SƏHİFƏ 2-DƏ

### ÖMRÜNÜN 60 İLİNİ TEATRA HƏSR EDƏN SƏNƏTKAR



## “O DÖVR ÜÇÜN DANIŞMAĞA ÇOX SÖZÜM VAR...”

Xalq artisti Rafiq Əzimov: “Kiçik rollar oynayıb bu mərtəbəyə çatmaq asan deyil. Əməkdar artist, Xalq artisti fəxri adları, Prezident təqaüdü, “Şöhrət” ordeni - bunlar boşuna verilmir”.

SƏHİFƏ 8-9-da



## FİDAN-ABDULLAHİAN DANIŞIQLARINDA AZƏRBAYCANIN YERİ

Bakı-Ankara-Tehran formatı regionda manеələri aradan qaldırmağa imkan verə biləcək faydaya malikdir. Faydaların praktiki əhəmiyyəti isə İranın sərgiləyə biləcəyi davranışların xarakterindən asılıdır.

SƏHİFƏ 5-də



## REPETİTORLAR DA QİYMƏTLƏRİ QALDIRIB?

Repetitorların qiyməti şəhər, bölgələr, kəndlərə görə dəyişir. Şəhərin mərkəzində yaxşı repetitorun aylıq qiyməti bu il minimum 200 manatdır. Şəhər mərkəzinə yaxın yerlərdə minimum qiymət isə 70-80 manatdır.

SƏHİFƏ 12-də



## NƏ O GƏLİR VAR, NƏ DƏ O YATIRIM

Bir zamanların ən gəlirli biznes sahələrindən hesab olunurdu. Lakin pandemiya və ondan sonrakı dövrdə dəyişən toy adət-ənənələrimiz bu sahəni də “vurdu”. Söhbət bəy-gəlin maşınları bazarından gedir.

SƏHİFƏ 14-də

Üç əsrin qəzeti Kaspi



# Ermənistanın "blokada" iddiaları əsassızdır




Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın xarici işlər naziri Annalena Beerbok ilə telefon danışığı aparıb. Telefon danışığı zamanı regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi müzakirə olunub.

C.Bayramov, bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Ermənistan tərəfindən yayılan "gərgin humanitar vəziyyət" və "blokada" iddialarının əsassız olduğu, bunun Ermənistanın siyasi manipulyasiyasının tərkib hissəsini təşkil etdiyini diqqətə çatdırıb. Telefon danışığı zamanı, Ermənistanın davam edən hərbi təxribatları, mina təhdidləri barədə qarşı tərəfə müfəssəl məlumat verilib. Daha sonra, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# SOCAR - ICIEC əməkdaşlığı müzakirə edilib



Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və İslam İnkişaf Bankı (İsDB) Qrupuna daxil olan İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyası (ICIEC) enerji, dekarbonizasiya və rəqəmsallaşma sahələrində potensial əməkdaşlıq imkanlarını nəzərdən keçirib.

"Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, bu barədə SOCAR-ın prezidenti Rövşən Nəcəf İslam ICIEC-in baş icraçı direktoru Ussama Kayssi ilə keçirilən görüşdə bildirilib.

Görüşdə Azərbaycan və İsDB arasında uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb. Bu xüsusda ötən il ölkəmiz tərəfindən "İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyasının Təsis Müqaviləsi"nin təsdiq edildiyi məmnunluqla qeyd edilib.

Görüş çərçivəsində SOCAR-ın ölkə daxilində və xaricdə həyata keçirdiyi investisiya layihələri, şirkətin uzunmüddətli korporativ strategiyası, bu istiqamətdə görülən işlər və gələcək hədəflər barədə məlumat verilib. Həmçinin, tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ermənistan yeni hərbi təxribata hazırlaşır

Gərginlik həm şərti sərhəddə, həm də ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin yerləşdiyi təmas xəttində müşahidə edilir. Əldə olunmuş faktlar İrəvanın sülh pərdəsi adı altında yenidən müharibə və hərbi təxribatlar taktikasını seçdiyini söyləməyə ciddi əsas verir.



Ermənistanın Azərbaycan əleyhinə hərbi təxribatları artmaqdadır. Gərginlik həm şərti sərhəddə, həm də ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin yerləşdiyi təmas xəttində müşahidə edilir. Əldə olunmuş faktlar İrəvanın sülh pərdəsi adı altında yenidən müharibə və hərbi təxribatlar taktikasını seçdiyini söyləməyə ciddi əsas verir.

### ERMƏNİSTAN ORDUSUNUN "DÖYÜŞ HAZIRLIĞI"

Belə ki, bir neçə gün əvvəl müxtəlif teleqram kanallarında Ermənistanın ağır silahlı texnikalarının sərhəddimizə doğru irəlilədiyini əks etdirən videogörüntülər yayımlandı. İrəvan bu faktı təkzib etməyə çalışsa da, yaşanan son hadisələr Ermənistanın Azərbaycana qarşı məkrli hərbi planlarının olduğunu təsdiqləməkdədir. Sentyabrın 6-da axşam saatlarında Gorusda qaldığı hotelin yaxınlığında naməlum maskalı şəxslər tərəfindən saxlanılan ermənistanlı bloqer Mika Badalyanın həbsinin bəzi detalları da üzə çıxıb. Məlum olub ki, internetdə Ermənistan ordusuna aid texnikanın hərəkətini əks etdirən görüntüləri Mika Badalyanın arvadı Milana Andreyeva lentə alıb. İndi qarşı tərəf bu videoların internetə necə sızdırıldığını araşdırmağa çalışır. Lakin Ermənistan ordusunun döyüş hazırlığı həqiqəti dəyişməz olaraq qalır.

Qeyd edək ki, planlarını ört-basdır etmək və hərbi gərginlik fonunda "günahı" yenidən Azərbaycanın üzərinə atmaq məqsədi ilə son bir həftə ərzində Ermənistan mətbuatında xüsusi kampaniyaya start verilib. Həm iqtidar, həm də müxalifəti təmsil edən siyasilər "Azərbaycan tezliklə Ermənistana və Dağlıq Qarabağa hücum edəcək" kimi tezislər üzərindən cəmiyyətdə və beynəlxalq aləmdə fon yaratmağa çalışırlar.

### BAKI PROSESLƏRİ DİQQƏTLƏ İZLƏYİR VƏ LAZIMİ NƏTİCƏLƏRİ ÇIXARIR

Lakin Bakı prosesləri diqqətlə izləyir və lazımi nəticələri çıxarır. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Reuters"ə açıqlamasında deyib: "Azərbaycan Silahlı Qüvvələri payız-qış mövsümünə hazırlıq məqsədilə əvvəldən planlaşdırılmış təlimlər keçirir, Ermənistan isə sərhədə qoşun cəmləşdirir. Bu, müntəzəm planlaşdırma prosesinin bir hissəsidir". O, Ermənistanı öz qoşunlarını sərhəddə cəmləşdirməkdə və yeni silah sistemləri almaqda ittiham edib. H.Hacıyevin sözlərinə görə, Qarabağdakı qanunsuz erməni qüvvələri də öz kazarmalarından çıxaraq yüksək döyüş hazırlığı şəraitində cəbhə xəttindəki mövqelərə yerləşdirilib. "Bizim strategiyamız Azərbaycana qarşı hər hansı silahlı və ya qeyri-qanuni hərbi hərəkətlərin və ya təxribatların qarşısını almaq və zərərsizləşdirməkdən ibarətdir", - Hikmət Hacıyev bildirib.



### İRƏVAN YENƏ DƏ VAXT QAZANMAĞA ÇALIŞIR

Bölgədəki gərgin vəziyyət dünən Xarici İşlər Nazirliyində ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün keçirilən brifinqdə də diqqət mərkəzində olub. Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun iştirak etdiyi brifinqdə bildirilib ki, Azərbaycanın sülh prosesinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən atdığımız ardıcıl addımlarla sübut edilib. Suverenliyimizi və ərazi bütövlüyümüzü qorumaq əzmimiz eyni dərəcədə möhkəm və qətiyyətlidir.

Qeyd olunub ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ciddi çağırışlarla üzləşir. "Ermənistan tərəfinin müşahidə etdiyimiz davranışı 30 il ərzində bu ölkəyə xas olan danışıqların imitasiyası, əldə olunmuş öncəki razılaşmalardan geri çəkilmək və müxtəlif siyasi, hərbi və digər təxribatlara əl atmaqla üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən boyun qaçırmaq təcrübəsinin təkrarıdır.

### "DƏMİR YUMRUQ 2" ƏMƏLİYYATININ VAXTI YETİŞİB

Ermənistanın məqsədi Azərbaycan ərazisində separatizmi bütün mümkün ideoloji, siyasi, hərbi, maliyyə və digər vasitələrlə qoruyub saxlamaqdan ibarətdir. Bu məqsədlə, Ermənistan vaxt qazanmağa çalışır və danışıqların bütün istiqamətləri üzrə irəliləyişi təmin edə biləcək real addımlardan yayınır", - brifinqdə bildirilib.

Yaşanan proseslər onu göstərir ki, həm Ermənistan hakimiyyətində oturanlar, həm də Qarabağdakı separatçıların son təhdidlərini aradan qaldırmaq üçün yenidən "Dəmir yumruq 2" əməliyyatının vaxtı yetişib. Bakının İrəvana sülh üçün verdiyi 3 ilə yaxın müddətdə Ermənistan rəhbərliyi sülhü və əməkdaşlığı təşviq etmək, sabitliyə doğru addım atmaq yolunu deyil, qisas, separatizmi dəstəkləmək yolunu seçib. Seçimin yanlış olduğunu bir daha xatırlatmaq isə bizim vəzifəmizdir.

Bölgədəki proseslərin yönləndirilməsi və bütün tərəfin maraqlarının uzlaşdırılmasında, Cənubi Qafqazda separatizmin kökünün kəsilməsində əsas oyunçu Bakıdır. Bu mövqe Prezident İlham Əliyevlə ABŞ Dövlət katibi Antoni Blinken arasındakı son telefon danışığı zamanı bir daha Vaşinqtonun diqqətinə çatdırılıb.



# SEPARATİZMİN BÜTÜN TƏZAHÜRLƏRİ QƏBULEDİLMƏZDİR



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Hazırda Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqlarında yenidən fasilə yaranıb. Əsas səbəb isə İrəvanın Laçın yolu qarşısında düzənlədiyi "humanitar yardım şousu"nu bəhanə edərək əvvəlki müzakirələrdə əldə olunmuş razılaşmalardan və mövqeyindən imtina etməsidir. Qeyd edək ki, danışıqlar üç məkəzdə aparılır – Vaşinqton, Moskva və Brüssel.

### ABŞ-NİN MÖVQEYİNDƏKİ İKİLİ STANDARTLAR

Rusiya ilə Ermənistan arasında yaşanan gərginlik, Fransanın Brüssel formatına qərəzli müdaxiləsi fonunda danışıqlar prosesində əsas moderator kimi yenidən ABŞ önə çıxıb. Lakin əvvəlki müzakirələrdən fərqli olaraq son dönəmlərdə ABŞ-nin də mövqeyində ikili standartlar müşahidə edilməkdədir. Hadisələrin xronikası və səsləndirilən bəyanatların mahiyyəti onu deməyə əsas verir ki, bu dəyişikliyin əsas səbəbi Ağ Ev uğrunda yaxınlaşan mübarizədə erməni lobbisinin dəstəyini qazanmaq istəyidir.

### REGİONDAKI ƏSAS OYUNÇU AZIRBAYCANDIR

Lakin dəyişməyən bir reallıq var ki, bu bütün siyasi mərkəzlər, o cümlədən ABŞ tərəfindən də qəbul edilir. Azərbaycan ərazi bütövlüyünə təhdid yarada biləcək hansısa "həll yolunu" qəbul etməyəcək. Bölgədəki proseslərin yönləndirilməsi və hər bir tərəfin maraqlarının uzlaşdırılmasında, Cənubi Qafqazda separatizmin kökünün kəsilməsində əsas oyunçu Bakıdır. Bu siyasətin konturları isə Azərbaycanın dəstəklədiyi və qəbul etdiyi şərtlərdən kənara çıxa bilməz. Bu mövqe Prezident İlham Əliyevlə ABŞ Dövlət katibi Antoni Blinken arasındakı son telefon danışığı zamanı bir daha Vaşinqtonun diqqətinə çatdırılıb. Telefon söhbəti zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## SİYASİ MANİPULYASİYA CƏHDLƏRİ

Prezident İlham Əliyev bildirib ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yol ilə ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Ağdam-Xankəndi yolundan istifadədən bu formada imtina etmək siyasi manipulyasiyadır və həmin ərazidə guya humanitar, yaxud qida böhranının yaşandığını iddia etmək üçün məqsədyönlü yalandır. Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər. Prezident İlham Əliyev vurğulayıb ki, dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən "Laçın" sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi daxili işlərimizə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Azərbaycan Prezidenti Ermənistanın bu kimi siyasətinin sülh müqaviləsi üzrə danışıqlara ciddi zərər vurduğunu bildirib.

### BAKININ CAVABI ƏN SƏRT FORMADA OLACAQ

Azərbaycan Prezidentinin açıqlamalarından da göründüyü kimi, rəsmi Bakı növbəti dəfə danışıqlarda siyasi manipulyasiyaya, Qarabağdakı erməniəsilli sakinlərin reinteqrasiya proseslərinə kənar müdaxiləyə imkan verməyəcək, sülh prosesini əngəlləyən hansısa əsası olmayan şantaj və təhdidlərə qarşı cavab isə ən sərt formada olacaq.

İstər ABŞ, istərsə də Ermənistan hakimiyyəti və separatizmə dəstək verən kənar qüvvələr Azərbaycanın bu xəbərdarlığının sadəcə sözdə deyil, əməldə də reallaşa biləcəyini çox gözəl anlayırlar. Ən azından, ortada 2020-ci ilin cəmi 44 gün davam edən və 30 il ərzində məhz ikili yanaşmalar nəticəsində formalaşmış ədalətsiz reallığı darmadağın edən hərbi əməliyyatlar təcrübəsi var.



## UKRAYNADA SEPARATİZMƏ SANKSİYA TƏTBİQİ, QARABAĞDA İSƏ...

İkili standartları xatırladarkən, bu günlərdə Vaşinqtonun keçmiş postsovet ölkələrinin ərazisindəki separatçı rejimlərə və meyllərə fərqli yanaşma sərgilədiyini göstərən daha bir proses yaşandı. Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının əsas vasitəçilərindən sayılan Blinkenin Ukraynanın Rusiya tərəfindən işğal edilmiş ərazilərində keçirməyi planlaşdırılan "seçkilər"lə bağlı bəyanatı bir daha bizləri düşünməyə vadar edir. "Ukraynanın işğal olunmuş ərazilərində Rusiyanın psevdoseçkilərində iştirak edənlər ABŞ-nin sanksiyaları altına düşmək riski daşıyır", - ABŞ-nin dövlət katibi Antoni Blinken bəyanatında deyilir. O, psevdoseçkiləri Kremlin işğal olunmuş ərazilərə qarşı qeyri-qanuni iddialarını gücləndirmək istədiyi "təbliğat tədbiri" adlandırıb.

### HƏRBİ-SİYASİ TƏZYİQ MEXANİZMLƏRİ

Xatırladaq ki, bu günlərdə Azərbaycanın Qarabağ bölgəsində rus sülhməramlılarının himayəsində məskunlaşmış separatçı rejimin qalıqları da "prezident seçkisi"nə hazırlaşırlar. Nədənsə Azərbaycanın ərazi bütövlüyünü təhdid edən, Cənubi Qafqazda separatizm meyllərini atəşləyən bu "seçkini" təşkil edənlərə Vaşinqton tərəfindən hansısa sanksiyaların tətbiqi xəbərdarlığını eşitmirik. Əslində eşitməyəcəyimizi də bilirik. Səbəb ikili standartlar və fərqli maraqlar olsa da, əsas bəhanə kimi "bitərəflilik prinsipinə riayət" göstəriləcək. Bu səbəbdən, son günlərdə bölgədə sülh prosesini canlandırmaq və ölkəmizə qarşı diplomatik təhdidləri zərərsizləşdirmək istiqamətində Bakının fəallığı mövcud reallıqlar çərçivəsində əlavə tədbirlər görülməsini də zəruri edir. Əlavə tədbirlər dedikdə isə, yenidən hərbi-siyasi təzyiq mexanizmləri nəzərdə tutulur.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



# AZƏRBAYCANDAN Türk dünyasına çağırış

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin qəbulunda bildirib ki, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir.

Azərbaycanın xarici siyasət kursunda türkdilli ölkələrlə əməkdaşlığı genişləndirmək, türk dünyasında birliyə, həmrəyliyə nail olmaq prioritet təşkil edir. Son illərdə sözügedən istiqamətdə həyata keçirilən diplomatik səylər nəticəsində ciddi uğurlara imza atılıb.

### TÜRK DÜNYASI BÖYÜK BİR AİLƏDİR

Prezident İlham Əliyev də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin qəbulunda bu məsələyə xüsusilə toxunub. Dövlət başçısı bildirib ki, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir: "Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik". Prezidentin sözlərinə görə, türk dünyası böyük bir ailədir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilib. "Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır. Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir.



## "BİZ DÜZGÜN YOLDAYIQ"

Təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir. Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq", - İlham Əliyev deyib.

### ŞİMALİ KİPR NÜMAYƏNDƏSİNƏ XÜSUSİ DİQQƏT

Dövlət başçısı qəbulda Şimali Kipr nümayəndəsinin iştirakına xüsusi diqqət ayırıb: "Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda, öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq".

### ERSİN TATAR AZƏRBAYCAN PREZİDENTİNƏ TƏŞƏKKÜR ETDİ

İlham Əliyevin Şimali Kipr Türk Respublikasının (ŞKTC) bayrağının Azərbaycanda keçiriləcək tədbirlərdə dalğalanacağını bəyan etməsindən sonra bu ölkənin Prezidenti Ersin Tatar Azərbaycan Prezidentinə təşəkkür edib.

## "MÜNASİBƏTLƏRİMİZİN DAVAMLI İNKİŞAFI ƏN BÖYÜK ARZUMDUR"

ŞKTC Prezidentinin saytında yer alan açıqlamada Ersin Tatar bildirib: "Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycandakı tədbirlərdə dalğalancağını açıqlamasından məmnuniyyət duydum. Aralıq dənizinin şərqində bir türk dövləti olan ŞKTC varlığını bir millət, üç dövlət anlayışı ilə davam etdirir. Azərbaycan ilə aramızdakı könül birliyinin, dəyərlərin və eyni millətin ayrılmaz hissələri olaraq münasibətlərimizin davamlı inkişafı ən böyük arzumdur". Ersin Tatar açıqlamasında Prezident İlham Əliyevə bir daha təşəkkürünü ifadə edib, qardaşlıq və əməkdaşlığın sonsuza qədər davam etməsini diləyib.

### UCA SƏSLƏ DANIŞMAĞIN ZAMANIDIR

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov da AZƏRTAC-a açıqlamasında deyib ki, dövlət başçısının siyasi ritorikası artıq Türk Dövlətləri Təşkilatı barədə daha uca səslə danışmağın zamanının gəldiyini göstərir. "Görüşün ən mühüm aspekti heç şübhəsiz ki, Azərbaycan Prezidentinin Şimali Kipr bəyanatı oldu: "Şimali Kiprin bayrağı bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır". Bu, Azərbaycana münasibətdə ikili standartlardan çıxış edən, etnik düşmənçilik və təhlükəli həddə almış separatizmə dəstək verənlərə Bakının layiqli cavabı oldu. Azərbaycan Lideri bir daha göstərdi ki, biz hər kəslə haqq etdiyi və anladığı dillə danışa biləcək hərbi-siyasi gücük", - deyən deputat əlavə edib ki, Şimali Kiprə dair sonrakı mövqeyimiz də çox aydındır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur. Biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.




Bakı-Ankara-Tehran formatı regionda dinamikanı artırmağa və siyasət, təhlükəsizlik sahəsindəki maneələri aradan qaldırmağa imkan verə biləcək faydaya malikdir. Faydaların praktiki əhəmiyyəti isə daha çox İranın sərgiləyə biləcəyi davranışların xarakterindən asılıdır.

# Fidan-Abdullahian DANIŞIQLARINDA Azərbaycanın yeri

**AQŞİN KƏRİMOV**

Türkiyənin xarici işlər naziri Hakan Fidanın Tehrana səfər edərək İranın baş diplomatı Hüseyn Əmir-Abdullahianla danışıqlarında Azərbaycan üçün vacib sayıla biləcək bir nüans müzakirə predmetinə çevrildi.

Söhbət Türkiyə və İran xarici işlər nazirlərinin Bakı-Ankara-Tehran danışıqlar formatının yaradılması ilə bağlı razılaşdırdığı nöqtədən gedir.

### KLASSİK YANAŞMANIN DƏYİŞMƏSİNDƏN DANIŞA BİLMƏRİK

Bu razılıq İranla Türkiyənin regional planlarının irəliləməsinə hazırlıq mərhələsinin ikitərəfli əməkdaşlıqla möhkəmləndirilməsi məqsədlərini özündə ehtiva edir.

Lakin İran bütün regiona və qlobal oyunçulara birmənalı surətdə bəlli edir ki, Cənubi Qafqazda geosiyasi dəyişikliklər qəbuledilməzdir, Türkiyə isə Azərbaycanın yeni reallıqlar yaratmaq qabiliyyətinə nəhəng dəstək verir.

Deməli, Türkiyə ilə İran Cənubi Qafqazdakı vəziyyət üzərindən regional maraqlarını yaxınlaşdırmağa çalışsalar da, hər iki dövlətin adət edilmiş vərdişlərinin və bundan irəli gələn maraqların təminindəki klassik yanaşmasının dəyişdiyindən söz aça bilmərik.

Bununla belə, Ankara-Tehran trafikindəki əməkdaşlığın Cənubi Qafqazı əhatə edəcək sərhədlərini təyin etmək qarşılıqlı ehtiyaclardan dolayı əhəmiyyət daşıyır.

Bu mənada Abdullahian-Fidan danışıqlarının nəticələrinin Qafqaz regionu üzrə çalarlarını iki regional oyunçunun yeni tendensiyalar haqqında birgə məruzə hazırlamağa razılıq əlamətləri kimi də şərh etmək olar.



### TÜRKİYƏNİ NARAHAT EDƏN SƏBƏB

Təbii ki, tərəflər bir-birilərinin strategiyasındakı dəyişməz ölçülərə hörməti nümayiş etdirə bilən diplomatik və hərbi-siyasi nəzakəti qorumaq öhdəliklərini də göstərməlidirlər.

Belə strateji sistem daxilində tərəflər bir-birinə qarşı hərbi seçim etmək prinsipindən qaçırlar, çünki nə Türkiyə, nə də İran bir-birilə açıq toqquşmada maraqlıdır.

İranın Azərbaycan məsələsindəki doktrinası isə Türkiyənin narahatlığına səbəb olur, çünki Ankara Bakının strateji müttəfiqi olduğundan onun strateji müdafiəsinə cavabdehlik məsuliyyətini dərk edir.

Türkiyə-İran danışıqlarının aspektlərindən aşkar olunan budur ki, onlar Cənubi Qafqazdakı gündəlik üzrə iddialarını saxlasalar da, bunun icrası üzrə izləmə konsepsiyasını qarşılıqlı şəkildə hazırlamağı düşünürlər.

### RAZILAŞMANIN ANATOMİYASINDA İQTİSADİ ASPEKTLƏR ÖN PLANDADIR

Yeri gəlmişkən, Azərbaycan üçün qeyd olunan əməkdaşlığın faydalılıq dərəcəsi Zəngəzur dəhlizi layihəsinin formatı çərçivəsində qiymətlidir. Çünki regionda "3+3" formatı (Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan) səmərəli əməkdaşlıq modeli kimi təhlükəsizliyə də töhfə verən nəzəri aspektlərə malikdir.

Abdullahianla Fidanın danışıqları ümid yaradır ki, İran Zəngəzur koridorunun açılması mövzusunda Azərbaycanın mövqeyinə yaxınlaşan dairə cıza bilər.

Lakin köklü siyasətdə dəyişiklik gözlənilmədiyindən İranın Zəngəzur dəhlizinin strateji kontekstinə davamlı qarşı çıxması gözləniləndir.

Türkiyə ilə İranın razılaşmasının anatomiyasında iqtisadi aspektlər ön plandadır, belə ki, Zəngəzur koridorunun beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin şaxələndirilməsindəki roluna diqqət yetirilir.

Bu amil Rusiya üçün də önəm daşıyır, çünki Şimal-Cənub Nəqliyyat Dəhlizinin diversifikasiyası qlobal tədarük zəncirlərində maneələrlə üzləşən Moskvaya kompensasiyaedici platforma təqdim edir.

Azərbaycanla Türkiyə üçün isə Zəngəzur dəhlizi mövzusu "Şimal-Cənub"la yanaşı, Şərq-Qərb Beynəlxalq Nəqliyyat Marşrutunun içərisində böyüyən strateji məntiqə söykəyir.

Deməli, Azərbaycan-Türkiyə-İran formatındakı mümkün danışıqlarda ən çox iqtisadi-ticari layihələrin parlaqlaşacağını vurğulaya bilərik.

## CƏNUBİ QAFQAZDA TƏHLÜKƏLİ TƏHLÜKƏSİZLİK RESEPTLƏRİ

İqtisadi faza üzərindən regional təhlükəsizlik üçün reseptlər müxtəlif versiyalarla hazırlanmalıdır, hərçənd bu mövzuda Tehranın strateji zəkası Bakı-Ankara müttəfiqliyinin müştərək məntiqindən fərqli meyarlara söykənir.

Təkcə ona görə yox ki, Azərbaycan-Türkiyə müttəfiqliyinə qarşı İranın klassik qısqanclığı mövcuddur. Həm də bu amil nəzərə alınmalıdır ki, regionda Azərbaycan-Türkiyə-İsrail üçbucağı çəkilir və təhlükəsizlik sahəsindəki meyarlar dəyişir.

Bu faza təhlükəsizlik üzrə prioritetlərin icrasını yenidən qızışdırır, hələ nəzərə alanda ki, regionda Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlıq səviyyəsi də yüksəlir, vəziyyətin rəngini müəyyən etmək çətinləşir.

Bakı-Ankara-İslamabad ruhuna qarşı tövr nümayiş etdirən alternativ güc olan Hindistan da İranla ortaq məxrəcə gəlmək istəyir. Bu, xüsusilə Azərbaycan-Ermənistan gündəliyinə münasibətdə özünü aydın şəkildə göstərir.

Bu faktoru da qeyd etmək zəruridir ki, İran Türkiyənin ərəb dünyası və Mərkəzi Asiya ilə münasibətlərini diqqətlə izləyir. Ankaranın xarici siyasət konsepsiyasındakı formaca yeni tendensiyalara Azərbaycan və İsrail də dəstək göstərir. Bu da təbii ki, İranın maraqları ilə uyuşan səviyyədən kənardadır.

Bütün bunlardan yola çıxsaq, qarşıda hələ Azərbaycan-Türkiyə-İran formatında danışılası və yerinə yetiriləsi çox işlərin olduğu qənaəti asanlıqla formalaşır.

Ancaq Bakı-Ankara-Tehran formatı regionda dinamikanı artırmağa və siyasət, təhlükəsizlik sahəsindəki maneələri aradan qaldırmağa imkan verə biləcək faydaya malikdir.

Faydaların praktiki əhəmiyyəti daha çox İranın sərgiləyə biləcəyi davranışların xarakterindən asılıdır.



# ELEKTRİK İXRAC EDƏN ÖLKƏYƏ ÇEVRİLİRİK

Artıq Azərbaycan dünyaya elektrik enerjisi ixrac edən dövlətə çevrilib. Təsadüfi deyil ki, xaricə ixracla bağlı əldə olunan gəlirlərin statistikasında enerji ixracından gəlirlərimiz ilk yerdə dayanır. Ekspertlər bu sahənin inkişafının iqtisadiyyatımıza xeyli gəlir gətirəcəyinə ümid edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ilin yanvar-mart ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci olub. Bu ixracdan əldə etdiyimiz gəlir isə 281,1 milyon ABŞ dollarıdır. Artıq elektrik enerjisi satan dövlətə çevrilmişik. Bəs bu yenilik iqtisadiyyatımıza necə təsir edəcək?

### QEYRİ-NEFT SEKTORUNUN SÜRƏTLƏ İNKİŞAF EDƏN SAHƏSİ

Deputat Azər Badamov dedi ki, qeyri-neft sektorunda sürətlə inkişaf edən sahələrdən biri də elektroenergetikadır: "Enerji istehsalı sahəsində bərpa olunan yeni enerji güclərinin ərsəyə gətirilməsi və ixrac xətlərimizin tikilməsi Azərbaycana elektrik enerjisinin ixracından daha böyük gəlirlər gətirəcək. Bu gün dünyada baş verən proseslər qlobal enerji xəritəsində dəyişikliklərin edilməsini labüd edib. Azərbaycan Avropanın yeni qurulan enerji xəritəsində özünəməxsus rola malikdir və bu qitənin neft, qaz və elektrik enerjisinin təhlükəsizliyində həlledici rol oynayacaq".



### "AVROPA İTTİFAQINA İNNOVATİV YAŞIL ENERJİ İLƏ ÇIXA BİLƏCƏYİK"

Millət vəkili Vüqar Bayramovun fikrincə, Azərbaycan elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib: "Elektrik enerjisinin Azərbaycan ixracatında xüsusi paya malik olması bu sahədə dövlət gəlirlərimizin artması mənasına gəlir. Nəzərə alaq ki, Azərbaycanda alternativ enerji sektoruna kifayət qədər böyük investisiya yönəldilib. Xarici şirkətlərlə bağlanmış müqavilələr də ondan xəbər verir ki, enerji ixracatımız artacaq. Digər tərəfdən, Azərbaycan 2026-cı ildən sonra Avropa ittifaqına da elektrik enerjisi ixrac edəcək. Qara dəniz vasitəsilə enerjinin Gürcüstan, Rumıniya və Macarıstana ixracı mümkün olacaq.

Birinci rübün yekunları da göstərir ki, bir tərəfdən qeyri-neft ixracatının strukturu şaxələnib, digər tərəfdən Azərbaycan elektrik enerjisi istehsalında və ixracında regional olaraq xüsusi aparıcı ölkəyə çevrilib. 4 ölkəyə elektrik enerjisi ixrac edirik. Xüsusən də Avropa İttifaqı ilə bağlanmış müqavilə ixracın genişlənməsinə və şaxələnməsinə imkan yaradacaq. Azərbaycan artıq Avropa İttifaqına ənənəvi enerji məhsulları deyil, həm də innovativ yaşıl enerji ilə çıxa biləcək. Bu da enerji ixracatının mənbə olaraq şaxələndirilməsi baxımından vacibdir. Perspektivdə Azərbaycanın elektrik enerjisi ixracatından əldə etdiyi gəlirlərdə artımların olacağı gözlənilir".

### "DÜNYA ÖLKƏLƏRİ İLƏ STRATEJİ TƏRƏFDAŞA ÇEVRİLİRİK"

İqtisadçı Eldəniz Əmirov bildirdi ki, elektrik enerjisinin ixrac edilməsi enerji təhlükəsizliyimiz baxımından vacibdir: "İstehsal həcmi artdıqca ixracı da artırmaq imkanları yaranır. Bunu rəqəmlərdə də görürük. İxracın artırılması həm qeyri-neft sektorunun inkişafı baxımından vacibdir, həm də digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında rolumuzu artırırıq. Bu isə bizi onlarla strateji tərəfdaşa çevirir. Əlavə olaraq, ölkənin enerji təhlükəsizliyinə tam əminlik yaranır".



Azər Badamov
Vüqar Bayramov

## ZƏNGƏZUR DƏHLİZİ AÇILDIQDAN SONRA...

E.Əmirovun sözlərinə görə, elektrik enerjisi strategiyası özündə alternativ enerji mənbələrinə hədəflənən fəaliyyəti də ehtiva edir: "Azərbaycanın 200 qiqavata qədər enerji istehsal etmək potensialı mövcuddur. Onun 157-si Xəzər dənizinin payına düşür. Tək işğaldan azad olunmuş ərazilərimizdə 2000 meqavatlıq enerji potensialımız var. İstər külək, istər günəş, istər hidroenerji olsun. Hətta bp-nin investisiya qoyması ilə bağlı müəyyən razılaşmalar da var. Hansı ki, Cəbrayıl rayonunda günəş elektrik stansiyası quraşdırılacaq. Zəngəzur dəhlizi açıldıqdan sonra Azərbaycan enerji ixracını birmənalı olaraq artıra biləcək".

Enerji məsələləri üzrə ekspert İlham Şaban qeyd etdi ki, bu rəqəmlər real olmaya bilər: "281 milyon dollarlıq elektrik enerjisinin ixrac edilməsi Dövlət Gömrük Komitəsinin birinci rübdə bəyan edilmiş elektrik enerjisinin ixracıdır. Ancaq bu o demək deyil ki, biz bu qiymətə elektrik enerjisi ixrac etmişik. Bu rəqəm reallıqdan bir qədər uzaqdır. Çünki Azərbaycan həcm olaraq cəmi 1,3 milyard kilovat saat elektrik enerjisi ixrac edib. Ancaq gömrükdə 2,4 milyard kilovat saat kimi göstərilib. Yəni ötən ildən bəyan edilməmiş həcmi də üstünə gəlib. Növbəti dövrlərdə də bu, belə olacaq. Ötən il 2022-ci ilin yekunu olaraq Azərbaycan ilk dəfə 3 milyard kilovat saat elektrik enerjisi ixrac etməyə müvəffəq oldu. Ancaq gömrük bəyannaməsində bu cəmi 1,7 milyard kilovat saat olaraq bəyan edilib. 1,3 milyard kilovat saat bəyan edilməyib. İndi görürük ki, bunun təqribən 900 milyon kilovat saatı ötən ilin üzərinə gəlib və nəticə etibarilə belə böyük rəqəm alınıb".



İlham Şaban

## "GƏLİRLƏRİMİZİ DAHA DA ARTIRA BİLƏRİK"

İ.Şabanın sözlərinə görə, Azərbaycanda elektrik enerjisinin ixracının artımını, əsasən, 2020-ci ildən başlayaraq müşahidə edirik: "Azərbaycan 2020-ci ildə milyard kilovat saatdan çox ixraca nail oldu, ötən il bunu 3 milyard səviyyəsinə çatdırdı. Cari ilin birinci rübünün nəticələri isə göstərir ki, bunu hətta 4 milyard kilovat saata qədər də artıra bilər. Təbii ki, biz nə qədər çox istehsal ediriksə, o qədər də ixracımızı artırmaq imkanlarımız yaranır. Ölkə daxilində elektrik enerjisini daha rasional istifadə etsək, gəlirlərimizi daha da artıra bilərik".



# “SEÇKİ” TRAGİKOMEDİYASI

İrəvanda meriya uğrunda çəkişmələrin əsas simaları paytaxt seçkisini Azərbaycana qarşı radikal ritorika hesabına udmaq istəyən və siyasi mübarizəyə yumor səhnəsindən gələn namizədlər olacaq. Kimin qalib gəlməsindən asılı olmayaraq, tragikomedik vəziyyət hələ çox sürəcək.



RÜSTƏM QARAXANLI

Sentyabrın 17-də İrəvan Şəhər Şurasına keçiriləcək seçkinin müqəddəratı Ermənistan-Azərbaycan sərhədində, “Laçın” sərhəd-keçid məntəqəsinin yaxınlığında həll olunur. Baş nazir Nikol Paşinyanın son bir neçə ay ərzində nümayiş etdirdiyi bəyanat radikallığının da səbəbi məhz budur. Paris və Strasburq merlərinin sərhədə doğru səs-küylü səfərlərinin də başlıca məqsədi paytaxt İrəvanı əldən verməməyə hesablanıb.

### PAYTAXT GETDİSƏ, HAKİMİYYƏT DƏ GEDƏCƏK

Hakimiyyətin son üç il ərzində Azərbaycan qarşısında dişsiz və əlacsız qalması ermənilərin bir qisminin ürəyincə deyil. Bu kontingent əsas etibarilə paytaxtda məskunlaşıb. Seçkilərdə regionlar Paşinyan üçün xüsusi problem törətmir. Son 30 ildə dərin iqtisadi tənəzzülü öz üzərində hiss edən kəndli həm qonşularla sərhədlərin açılmasını, həm də hökumətin kənd təsərrüfatının müxtəlif sahələrinə verilən kredit və subsidiyalardan yaralanmaq imkanlarının qalmasını istəyir. “Qarabağ klanı”nın 20 illik hakimiyyəti dövründə belə “bəxtəvərçiliy”i nəinki arzulamaq, bu barədə düşünmək belə mənasız idi. İrəvandakı administrativ resurs mənbələrindən və xidmət sektorundan çörəkpulu əldə edən paytaxt sakinlərindən fərqli olaraq, periferiya camaatı hərtərəfli böhranın bütün ağrı-acısını öz kürəklərində hiss edib. Odur ki, Paşinyan əsas zərbəni məhz İrəvan sakinlərindən gözləyir. Paytaxt getdisə, hakimiyyət də gedəcək. Son bir neçə ayın radikallığının da əsas hədəfi Azərbaycanla qarşıdurmada məğlubiyyətə uğrayan hakimiyyətin paytaxtdakı revanşist kontingentin gözündəki reputasiyasına əl gəzdirməkdir.

### YELİSEY SARAYI İLƏ KREML ARASINDAKI İRƏVAN

Hazırda bütün ölkə kimi paytaxt İrəvan da Moskva ilə Paris arasında qalıb. Bu, bir seçim imkanı deyil, tale qarşısındakı əlacsızlıq, ermənilərin tarixi alternativ axtarışlarının növbəti göstəricisidir. Məcburiyyət xalq məhkəməsidir. Xalq isə ermənidirsə, hətta əsrlik haminin kürəyinə xəncər sancıb yeni sahibə pənah gətirmək problem deyil. Necə ki, Rusiya sürətlə Qafqazın cənubunu tərk edir, Fransa da həmin entuziazmla regiona daxil olmaq istəyir. Arxa qapıdan - Ermənistandan.

İkinci Qarabağ savaşı günləri və sonra, ümumiyyətlə, son üç ildə Ermənistanı Fransa qədər müdafiə edən olmayıb və yoxdur. BMT TŞ-nin 5 daimi üzvündən biri olan Fransa bütün beynəlxalq reputasiyasını tərəzinin bir gözünə qoyub, erməni sevgisini isə digər. Afrikadakı müstəmləkələr bir-bir əldən çıxır, Ermənistan məhəbbəti isə səngimir. Bu, özünü təbii ki, sıravi ermənilərin də simpatiya seçimində büruzə verir. Qərb bütövlükdə Ermənistanı Fransanın ixtiyarına buraxıb. Ona görə də İrəvanda Paşinyan tərəfdarlarının uduzması və paytaxtın ruspərəstlərin əlinə keçməsi hakimiyyətlə yanaşı, həm də Qərbin, yəni Parisin məğlubiyyəti sayıla bilər.



Ayk Marutyan Tiqran Avinyan

## “AZƏRBAYCANLA SONADƏK DÜŞMƏNÇİLİK”

İnsaf naminə, Paşinyanın gəlişindən sonra İrəvana sığal çəkməyə başlayıblar. Yeni parklar salınır, yollar təmir edilir, yaşayış binalarının həyətlərinə əl gəzdirilir. Yəni, idarəçilik baxımından hakimiyyət nümayəndəsi olan mer əvəzinin problemi yoxdur. Söhbət ideolojidir. Bu səbəbdən, yerli idarəetmə orqanlarına seçkilərin əsas leytmotivi yenə də “Azərbaycanla sonadək düşmənçilik”dir.

### KEÇMİŞ VƏ İNDİKİ MERİN DAVASI

Şəhər Şurası paytaxtın qanunverici hakimiyyətinin əsas orqanıdır. 65 nəfərdən ibarətdir. Şəhər meri də bu heyətdən seçilir. Yəni şurada çoxluğu əldə etmək mer vəzifəsini ələ keçirmək deməkdir. Təşkilatlanmış qüvvənin və ya partiyanın qələbə qazanmaq şansı daha çoxdur. Hakimiyyətin nümayəndəsi, hazırki mer əvəzi Tiqran Avinyan qarşısında kabinetinin divarındakı “əvəzi” sözündən qurtulmaq üçün fürsət yaranıb. Arxasında hakim partiya, əlində isə administrativ resurs var. Avqustda “Gallup”un keçirdiyi sorğunun nəticələrinə görə, hakim “Vətəndaş müqaviləsi” və Avinyan seçicilərin 15 faizinin səslərini qazana bilərlər. Onun başlıca alternativi isə 9-10 faizlə cəmiyyətdə böyük elektoral dəstəyi olmayan “Milli tərəqqi” partiyasının namizədi Ayk Marutyandır. O, populyar şəxsdir, ancaq partiyası zəifdir. Yəni seçici səsini partiyaya deyil, komediya ustasına verəcək. Marutyan əvvəllər də İrəvan meri olub, özü də Paşinyanın dövründə. Ancaq araları dəyəndən sonra vəzifəsindən uzaqlaşdırılıb.



## ADLARI DAİMA TALAN VƏ RÜŞVƏTLƏ ANILAN “QARABAĞ KLANI”

Qalan namizədlərin dəstək göstəricisi üç faizlik həddən yuxarı qalxmır. Hətta Ruben Vardanyanın yaratdığı “Həyat üçün ölkə” partiyasının namizədi Mane Tandilyan belə hakimiyyət nümayəndəsinə rəqib hesab olunmur. Bu isə o deməkdir ki, İrəvanda ruspərəstlərin hakimiyyəti ələ keçirmək şansları yoxdur. M.Tandilyan Ermənistanın və separatçı qurumun “kənd təsərrüfatı naziri” olub. Deməli, Köçəryan-Sarkisyan ikilisi ilə sıx bağlıdır. Ancaq problem ondadır ki, “Qarabağ klanı”nın nümayəndələri rüşvət və əhalini talan siyasətilə reputasiyalarını ləkələyiblər. Odur ki, Paşinyanın nüfuzdan düşməsi paytaxtda qarabağlıların qayıtması anlamına gəlməməlidir. Bunu R.Vardanyanın namizədinin reytinqi də təsdiqləyir.

Beləliklə, İrəvanda meriya uğrunda çəkişmələrin əsas simaları paytaxt seçkilərini Azərbaycana qarşı radikal ritorika hesabına udmaq istəyən və siyasi mübarizəyə yumor səhnəsindən gələn namizədlər olacaq. Kimin qalib gəlməsindən asılı olmayaraq, tragikomediya vəziyyəti hələ çox sürəcək. Tək paytaxtda deyil, həm dövlət, həm də ümummilli səviyyədə.

MÜSAHİBƏ Kaspi 9 SENTYABR ŞƏNBƏ 2023 9

ÖMRÜNÜN 60 İLİNİ TEATR VƏ KİNO SƏNƏTİNƏ HƏSR EDƏN SƏNƏTKAR "KASPİ"YƏ DANIŞIR

# "O DÖVR ÜÇÜN DANIŞMAĞA MƏNDƏ ÇOX SÖZ VAR..."




SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Xalq artisti Rafiq Əzimov:** "Kiçik rollar oynayıb bu mərtəbəyə çatmaq asan deyil. Əməkdar artist, Xalq artisti fəxri adları, Prezident təqaüdü, "Şöhrət" ordeni - bunlar boşuna verilmir".

**85** yaşını adlasa da, ömrünün 60 ilini teatr və kino sənətinə həsr eləsə də, özünə "sənətkar" deməyi xoşlamır. "Sənətin tavanı yoxdur. Əgər "Sənətkaram" deyiriksə, sənət orada bitir", - deyir. Xalq artisti Rafiq Əzimovun fikrincə, tamaşaçı qəlbinə yol tapmaq, ondan geri qalmamaq, o sevgini qoruyub saxlamaq üçün daim sənətin sirlərinə yiyələnmək lazımdır.

Görkəmli aktyor "Kaspi" qəzetinə müsahibəsində hələ oynamaq istədiyi rolların sirrini də açdı:

### 60 İL FASİLƏSİZ...

● **Sizinlə müsahibə üçün 20 il əvvəl görüşmüşəm. Zaman baxımından az deyil. O vaxtdan bu vaxta sənət aləmində nə dəyişib?**

● Sənətimizin çiçəklənən dövrü idi. İstər kino, istər teatr, istər televiziyada... O vaxt hara, indi hara? Mən heç vaxt taleyimdən şikayət etməmişəm. Bu gün də etmirəm. Çünki uşaqlıq vaxtlarımdan - həm məktəb, həm institut illərimdən aktyor olmaq, teatrda işləmək, filmlərə çəkilmək, televiziyada çıxış etmək arzularımın hamısına nail oldum. Hələ gənclik dövrümdə bütün bu arzularıma çatdım. Siz dünən zəng edəndə səhərə qədər yatmadım. Bilirsiniz niyə? Vaxt vardı, müsahibə verəndə işlərimiz haqqında bülbül kimi ötürdük. İndi çətinlik çəkirik - nədən başlayaq, nədə qurtaraq? Amma mən nikbin adamam. Ona görə ki, sənət aləmində fasiləsiz olaraq 60 il Milli Akademik Dram Teatrında çalışan ikinci bir aktyor yoxdur. Tamaşaçı bizi bizdən yaxşı tanıyır. Mən sənət aləminə kiçik epizodik rollarla gəlmişəm. Baş rollarım da olub. Professor İlham Rəhimli öz kitabında mənim yaradıcılığımı İsmayıl Osmanlının yaradıcılığı ilə müqayisə edib. O da ömrü boyu epizodik rollar oynayıb, amma SSRİ Xalq artisti adına layiq görülüb. Ona görə də, bizə institut dövründə sənət haqqında dərslər keçəndə "Rolun böyüyü, kiçiyi yoxdur, aktyorun böyük-kiçiyi var" deyirdilər. İsmayıl Osmanlı o qəbil aktyorlardan idi ki, İlham Rəhimli də məni onun kimi "zərgər aktyor" deyə dəyərləndirib. Mən bununla həmişə fəxr etmişəm. Kiçik rollar oynayıb bu mərtəbəyə çatmaq asan deyil. Əməkdar artist, Xalq artisti fəxri adları, Prezident təqaüdü, "Şöhrət" ordeni - bunlar boşuna verilmir. Ona görə də mən həmişə öz sənətimlə fəxr edirəm.

● **Bəs dəyişən nədir?**

● Bu gün doğrudan da sənətimizin çox çətin, ağrılı-acılı günlərini yaşayırıq. Amma son aylar keçirilən kino və teatr forumlarında nazir Adil Kərimli bütün sənət adamları üçün problemləri, təklifləri söyləməyə şərait yaratdı. Bu tədbirlər gələcək işlərdə uğurlar olacağına bizə ümidlər verdi. Əminəm ki, forumun nəticələri bizi naümid qoymayacaq. Bizim istedadlı insanlarımız çoxdur. Onlara öz sənətlərini nümayiş etdirmək üçün meydan lazımdır. Mən institutu qurtaranda 3 nəfər Milli Dram Teatrına təyinat aldıq. Təsəvvür edin ki, kinolarda gördüyümüz o aktyorlarla artıq tərəf-müqabil olurdum. Fatma Qədri, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Əli Zeynalov, Ələsgər Ələkbərov kimi nəhəng aktyorlar bu teatrda çalışırdılar. Tofiq Kazımov uzun illər teatrın bədii rəhbəri olub. Gənclərin əksəriyyətini - Səməndər Rzayevi, Amaliya Pənahovanı, Hamlet Xanızadəni hələ tələbə ikən teatra baş rollara dəvət elədi. Bu aktyorlar az yaşadılar, amma nələr qoyub getdilər... Adlarını çəkdiyim sənətkarları indi sağıma da, soluma da baxıb görə bilmirəm. Gəlib bu yaşa çatmışam. Gənclik illərində həmişə özümdən yaşlı rolları oynamışam. Mən axı keçmiş zamanda oynamışam. İndi əsl dövrümdür ki, bu günü oynayım.

Nəbi Xəzrinin "Burla Xatun" mənzum pyesində İxtiyar - Dədə Qorqud rolunu oynadım. Ulu öndər Heydər Əliyev gəlib tamaşaya baxdı. O, həmin dövrlərdə mənim oynadığım 4 tamaşaya baxmışdı. Eşidəndə ki, ümummilli lider gəlib tamaşaya baxır, biz həm qürur hissi, həm də həyəcan keçirirdik. Ulu öndər bizi dəyərləndirirdi, hədiyyələr verirdi. Bu fəxr deyil, nədir? Bunlar hamısı tarixi faktlardır. O dövr üçün danışmağa məndə çox söz var. Mən işə piyada gedib gəlirəm. Tamaşaçılarla ünsiyyətdə çox oluram. Onlar bizi sorğu-suala tuturlar: hanı o filmlər, hanı o tamaşalar? Mən yalan danışa bilmirəm. Onlara bir söz deyirəm: bizim xalqımız istedadlı xalqdır. Su gələn arxa bir də gələr.

### SENTYABR ÜMİDİ

● **60 il ərzində teatrda çoxlu bədii rəhbərlərlə işləmisiniz. Hər yeni təyinat həyatınızda hansı dəyişiklik yaradıb, sənətinizdə hansı izi qoyub?**

● Bu teatrda bədii rəhbərlərin də, baş rejissorların da, müdirlərin də sayı çox olub. Deyəndə ki, mən 60 il bir teatrda işləmişəm, bu o deməkdir ki, onların hamısı ilə işləmişəm. Səhnədə hələ məktəbli ikən Mirzəağa Əliyevi, Sidqi Ruhullanı görmüşəm. Fatma Qədri ilə tərəf-müqabil olmuşam. Bu teatrda Ədil İsgəndərov baş rejissor olub. Onun işlədiyi aktyorlar tələbələri olublar. Daha sonra Mehdi Məmmədov bu səhnədə necə mükəmməl tamaşalar səhnələşdirib... Əli İsmayılov direktor olub. Maqbet Bünyadov direktor olanda bütün teatr nümayəndələrinin iştirakı ilə mənimlə Kamal Xudaverdiyevin 60 illik yubileyimizi qeyd elədi. Əbülfəz Qarayevin əmri ilə 70 illik yubileyim də bu teatrın səhnəsində yüksək səviyyədə keçirildi. Əliabbas Qədirov da, İsrafil İsrafilov da, Azərpaşa Nemətov da bizim teatrda direktor oldu. Hər birinin öz yeri olub.

Hazırda teatra tanınmış rejissor Mehriban Ələkbərzadə bədii rəhbər təyin olunub. Kollektivimiz onu çox gözəl qarşıladı. Mehriban xanım hazırda Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsəri üzərində işləyir. Əminəm ki, teatrın bütün kollektivi bu tamaşada çalışacaq. Şuşada onunla bəzi söhbətlərimiz oldu. Mehriban xanımın istedadına bələdəm və vaxtilə onun hazırladığı tamaşada oynamışam. Ümid edirəm ki, Mehriban xanım unudulmuş illərimizi, yüksək səviyyəli tamaşalarımızı qaytaracaq. Əli İsmayılov adlı bir müəllimimiz vardı. Həmişə deyərdi: "Dünənə görə çox sağ ol, mənə bu gündən danış". Mən bu gündən o vaxt danışacağam ki, yeni teatr mövsümi gəlsin.

> "Bu, çox çətin sənətdir. Hər adam buna dözə bilməz. Ona görə oğlumun aktyor olmasını istəmədim."

### AKTYORUN YAŞ MƏHDUDİYYƏTİ...

● **Bir ara aktyorların təqaüd yaşı ilə bağlı söz-söhbətlər meydana çıxdı, qızğın müzakirələr getdi. Deyəsən o "təhlükə" sovuşdu...**

● Yaşlı nəsil aktyorların yaş məhdudiyyəti, onların sənətdən uzaqlaşdırılması ilə bağlı söz-söhbət yarandı. Amma sağ olsun xalqımız, deputatlarımız, həmçinin nazirliyimiz bu məsələyə həssaslıqla yanaşdılar. Sağ olsunlar ki, bu məsələyə nöqtə qoyuldu. Aktyorun yaş məhdudiyyəti yoxdur, istedadlısı və istedadsızı var. O aktyor ki, hafizəsi yoxdur, danışığını bilmir, buyursun, getsin. Dövlət onsuz da onlara qayğı göstərir. Nə qədər canımızda qüvvə var, çalışırıq. Repertuarda bir çox tamaşalarda oynayıram. Əminəm ki, yeni mövsüm də mənim üçün uğurlu tamaşalarla yadda qalacaq. Hazırda teatrda iki tamaşaya quruluş verilir. Tofiq Kazımovun vaxtilə hazırladığı "Sənsiz" tamaşası yeni quruluşda hazırlanır. Bu, onun 100 illik yubileyinə gözəl hədiyyə olacaq. Həmçinin Anarın "Dantenin yubileyi" əsəri üzərində iş gedir.

### "RASİMİN PREZİDENTLƏ GÖRÜŞÜ TƏKCƏ ONUN GÖRÜŞÜ DEYİLDİ"

● **Tamaşaçılar sizi həm də kinodan tanıyır. "Yeddi oğul istərəm" də Şahsuvar, "Arxadan vurulan zərbə"də Hüseynov, "Qızıl qaz" da Gündüz, "Xatirələr sahili"ndə Vəli, "Sevil"də Zabit və neçə-neçə filmlərdə rollar... O tamaşaçılar üçün hansısa sürpriz olacaqmı?**

● İndi mən sizə sual verim: kino var?

● **.... (Müsahibin sualına sükutla cavab veririk)**

● Rasim Balayevin Prezident İlham Əliyevlə görüşü təkcə onun görüşü deyildi, bütün teatr və kino adamlarının görüşü idi. O, hamımızın adından öz fikrini dedi. Rasim Balayev bu gün kinomuzun fəxridir. Onun kimi sənətkarlarımızı qorumaq lazımdır. Bir az ayağından şikayətlənsə də, hələ canında qüvvə var. Biz çox deyilik, barmaqla sayılacaq qədər qalmışıq. Rasim də bu gün ümidlə yaşayır. Bizim borcumuz var: biz qazilərimizə, şəhidlərimizə, ordumuza, Ali Baş Komandanımıza borcluyuq. İstedadlı gənclərimiz onların qəhrəman obrazlarını yaratmalıdırlar. Sənət aləmi zərrəbinlə hər şeyi göstərə bilər. Şuşada - Xarıbülbül Musiqi festivalında iştirak edəndə əzəmətli dağları görüb "İlahi, bizim igidlərimiz bura necə dırmaşıblar?", - deyə heyrət etdim. Bizim o igidlərimizə borcumuz var. Analarımızın gözü yoldadır. Onların qəhrəmanlığını dünyada tanıtmaq lazımdır. Elə filmlər çəkilməlidir ki, 44 günlük müharibədəki qələbəmizi tərənnüm eləsin.

### "YAXŞINI YAXŞI, PİSİ PİS DEMƏK LAZIMDIR"

● **Vaxtilə həvəslə baxdığımız teletamaşalar da yoxdur artıq...**

● O vaxt televiziyada maraqlı tamaşalar çəkilirdi. Heç yadımdan çıxmır: "Göz həkimi" tamaşasında professor İvanovu oynayırdım. Əvvəl rolu Hamlet Qurbanova vermişdilər. O, məşqlərə gəlmədi. Sonra Lütfi Məmmədbəyov rolu mənə verdi. O zaman tamaşanın məsləhətçisi Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru Nazim Əfəndiyev idi. Professora zəng edib "Xəstəxanaya gələ bilərəm?", - deyə soruşdum: "Mənə rol tapşırılıb. Xəstə-həkim münasibəti, göz əməliyyatı olandan sonrakı prosesləri, xəstənin davranışlarını və s. gözümlə görmək istəyirəm" dedim. Əgər 2-3 gün xəstəxanaya getməsəydim, rolum elə alınmayacaqdı.

Göyçayda qastrolda olanda mehmanxana ilə üzbəüz mağaza vardı. "Yaxşı mallar gəlib, gedək baxaq", - deyə sənət yoldaşlarıma dedim. Birdən bir qoca qadın piştaxtanın arxasından çıxıb məni qucaqlayaraq: "Sənə qurban olum, gözlərin açıldı?", - deyə ağladı. Aktyor yoldaşlarım gülüşdü. "O tamaşa idi", - deyə qadını güclə sakitləşdirdik.

● **Sənət baxımından sovet dövrünün nostaljisini yaşayırsınız?**

● Yaxşını yaxşı, pisi pis demək lazımdır. Biz o dövrü yaşamışıq. Bu tarix qalır, onu pozmaq mümkün deyil. Biz pioner qalstuku da taxmışıq, komsomol nişanı da. Mən teatrda partiya təşkilatının katibi idim. İndi şikayət etməyə haqqım yoxdur. 80 illiyimlə əlaqədar hörmətli Prezidentin sərəncamı ilə mənə "Şöhrət" ordeni verildi. Amma 85 illiyim Mədəniyyət Nazirliyində rəhbər dəyişikliyi olan dövrə düşdü. Ramiz Məlikin 80 yaşı oldu. Cənab Prezident onu Fəxri Diplomla təltif etdi. Prezident heç kəsi mükafatsız buraxmır. Mən yubileyimlə bağlı car çəkmək istəmirəm, amma sakitcə müraciət edəcəyəm.


Fotolar: Rüfət Mikayılov/Global Media Group

## HƏR ADAM BUNA DÖZƏ BİLMƏZ

● **Ailənizdə sənətinizi davam etdirən varmı?**

● Oğlum uşaq vaxtı 3 filmdə çəkilib. Sonra Eldar Quliyev onu "Nizami" filmində Məcnun roluna çəkmək istədi. Onda oğlum 10-cu sinifdə oxuyurdu. İnstituta daxil olmalı idi. Təhsilinə mane olmasın deyə, razı olmadım. Bu, çox çətin sənətdir. Hər adam buna dözə bilməz. Ona görə oğlumun aktyor olmasını istəmədim. Heç peşman da deyiləm. Bizim sənət adamlarının uşaqlarının bəziləri sənətdə yerlərini tutublar, bəziləri yox.

● **"Kaş onu da oynayaydım", - deyə içinizdə hansı rol qalıb?**

● Arzular genişdir. Həmişə bu barədə düşünürəm. Bilmirəm, Mehriban xanımın hazırladığı tamaşada varammı? Amma Nabrana istirahətə gedəndə kitabı özümlə aparıb təkrar oxudum. Oxuduqca obrazlar gözümün önünə gəlir və "Bu, mənə nə qədər doğmadır?", - deyə özümə sual verirəm. İndiyə qədər bir rejissora deməmişəm ki, mənə hansısa rolu verin. Bir də görürsən ürəyindən keçən rol sənə verilmir. Heç olmasa, dublyor versinlər, o da olmur. Bu da aktyorun içində qalır. Bu teatr mövsümünü böyük ümidlə gözləyirəm...






ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# "G20" SAMMİTİ: ZİDDİYYƏTLƏR ARTIR

Sentyabrın 9-10-da Yeni Dehlidə keçiriləcək sammitdə mühüm məsələlərin müzakirəsi gözlənilir. Lakin əvvəlcə Rusiya, ardınca da Çin lideri sammitdə iştirak etməyəcəklərini bildiriblər. Rusiya sammitdə xarici işlər naziri, Çin isə baş nazirlə təmsil olunacaq. Üstəlik, sammit ərəfəsində Çinlə ev sahibi Hindistan arasında da gərginlik yaşanır.






AZƏR NURİYEV

Həftəsonu, sentyabrın 9-10-da Hindistanın paytaxtı Yeni Dehlidə "G20"yə daxil olan ölkələrin sammiti keçiriləcək. Sammitin mühüm qərarların qəbulu və müzakirəsi ilə yadda qalacağı gözlənilirdi. Lakin əvvəlcə Rusiya, ardınca da Çin lideri sammitdə iştirak etməyəcəklərini bildiriblər. Rusiya sammitdə xarici işlər naziri, Çin isə baş nazirlə təmsil olunacaq. Qərb mediasının yazdığına görə, bununla da sammitin əhəmiyyəti azalmış olub. Çin liderinin sammitdə iştirak etməməsindən ən çox ABŞ prezidenti Cozef Bayden narahat olub. O, Si Cinpinin sammitdə iştirak etməməsindən məyusluğunu bildirib. Bayden ümid edirdi ki, Çin liderinin də iştirak edəcəyi sammitdə Rusiya əleyhinə hansısa bir qərarın qəbuluna nail olacaq.

### ÇİN ÜSLUBUNDA DİPLOMATİK GEDİŞ

Ekspertlər hesab edir ki, Çin lideri "G20" sammitinə getməkdən imtina etməklə Rusiya ilə əlaqələrin möhkəmliyini nümayiş etdirib. Qeyd olunur ki, bu cür jestlər tamamilə Çin üslubundadır. "Tayvanla bağlı ABŞ-la mümkün uzunmüddətli münaqişə kontekstində yalnız Rusiya Pekinə nəinki etibarlı arxa cəbhə, həm də lazım gələrsə, hərbi dəstək verə bilər. Ona görə də bu cür jestlər tamamilə təbiidir", - deyə teleqram kanallarda vurğulanıb. Çin ötən həftə bəyan edib ki, Dehlidəki sammitə baş nazir Li Çyan gedəcək. O, Çində ikinci şəxs hesab edilir. Bundan əlavə, yayılan xəbərlərə görə, Yeni Dehlidə keçiriləcək sammitdə Hindistanın baş naziri Narendra Modi Çinlə gərginliyin artması səbəbindən ciddi diplomatik sınaqla üzləşə bilər. Bloomberg mənbələrə istinadən xəbər verir ki, "G20" ölkələri 1999-cu ildə bu formatda görüşlər başlayandan bəri ilk dəfə ev sahibi ölkə ilə dünyanın aparıcı güclərindən biri arasında ziddiyyətlər səbəbindən yekun sənədləri razılaşdıra bilməyəcəklər. Pekin artıq Ukraynadakı münaqişənin pislənməsi və inkişaf etməkdə olan bazarların borc öhdəlikləri ilə bağlı məsələni bloklayıb. Bundan başqa, agentliyin həmsöhbətlərindən biri deyib ki, Çin hakimiyyəti Modinin təklif etdiyi konfransın mövzusunun induizmlə əlaqəli qədim dil olan sanskrit dilində yazılmasına qarşı xüsusilə "döyüşkən" mövqedədir.

## ÇİNLƏ ABŞ MÜNASİBƏTLƏRİ NORMALLAŞDIRA BİLMİR

Çinin sammitdə iştirak etməməsi ABŞ-la yaşanan gərginliklə də bağlı ola bilər. Vaşinqtondan olan çoxsaylı diplomatlar Pekinə səfər edərək ABŞ-Çin gərginliyini səngitməyə çalışsa da, buna nail ola bilməyiblər. İki ölkə arasında gərginlik bir çox məsələ ətrafında yaşanır - ticarət mübahisələrindən tutmuş, Tayvanın gələcəyi, Çinin Cənubi Çin dənizində ekspansiya siyasətinə qədər. Ümumiyyətlə, Çin ekspertləri "G20"nin Pekinə gərəkliliyi barədə müxtəlif fikirlər səsləndirirlər. "Atlantic Counsil" analitik mərkəzindən olan Coş Kipski hesab edir ki, Çin liderinin tədbirdə iştirak etməməsi "G20"nin uzunmüddətliliyini və davamlılığını şübhə altına almış olur. Əgər əvvəllər Çin bu birliyi özünün geosiyasi təsir vasitəsi kimi nəzərdən keçirirdisə, indi belə deyil. Paralel olaraq Çinin ABŞ, Yaponiya, Cənubi Koreya, Almaniya və digər Avropa nəhəngləri ilə münasibətləri korlanmağa başlayıb. "Carnegie China" analitik mərkəzindən olan Pol Xanle də bu qənaətdədir. Çin bunun əvəzində BRİKS adlanan təşkilatda mövqeyini gücləndirib. Təşkilata Braziliya, Çin, Hindistan, Rusiya, CAR daxildir. Son sammitdə üzvlərin sayı 5-dən 11-ə qaldırılıb. Yanvar ayında ora Argentina, Misir, İran, Efiopiya, BƏƏ və Səudiyyə Ərəbistanı da daxil olacaq.

### SAMMİT ƏRƏFƏSİNDƏ HİNDİSTAN-ÇİN GƏRGİNLİYİ

Çinin həm də ABŞ-la sıx əməkdaşlıq edən, lakin "strateji muxtariyyət"də israrlı olan Hindistanla çox çətin münasibətləri var. İki ölkə lideri Cənubi Afrikada keçirilən BRİKS sammitində görüşüb, lakin gərginlik yenə də davam edib.

Qərb ölkələrində bəzi analitiklər hesab edirlər ki, Çin liderinin "G20" sammitində iştirakdan imtina etməsi Pekinin klubun nüfuzunu aşağı salmaq üçün planlaşdırılmış cəhdidir. Bəzi hindli müşahidəçilər əmindirlər ki, Çin mübahisəli sərhədlə bağlı tərəflər arasında gərginliyin artdığı bir vaxtda Dehlidəki hadisəni korlamaq istəyir. "BRİKS ölkələrini birləşdirən yeganə şey dollara və ABŞ rəhbərliyinə qarşı hedcinq etmək istəyidir". Çinli müşahidəçilər BRİKS ilə yanaşı, Çin üçün "G20" ilə müqayisədə daha əlverişli olan digər platformanın Rusiya və Mərkəzi Asiya ölkələrinin də daxil olduğu Şanxay Əməkdaşlıq Təşkilatı olacağını irəli sürüblər.

## TÜRKİYƏ "G20" SAMMİTİNDƏ "ULDUZ"A ÇEVRİLƏCƏK




"G20" sammiti çərçivəsində Ukrayna üzrə yeni sülh danışıqları keçirilə biləcəyi də istisna edilmir. Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell "G20" ölkələrinə ünvanladığı məktubunda Rusiyanı danışıqlara qayıtmağa, həmçinin Ukraynanın kənd təsərrüfatı infrastrukturuna zərbələrdən çəkinməyə çağırmaq üçün dəstək vermələrini xahiş edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sammitdə Rusiya Prezidenti Vladimir Putinin Ukraynada münaqişənin başa çatması ilə bağlı şərtlərini açıqlaya bilər. Türkiyə Prezidenti G20 sammitindən əvvəl Rusiya lideri ilə görüşən yeganə liderdir. Bu da Türkiyəni Hindistanda keçiriləcək sammitdə "ulduz"a çevirəcək.

# XARİCDƏN GƏLƏN PULLAR AZALIB




Azərbaycana xaricdən pul köçürmələrinin həcmi azalıb. Ekspertlər bildirirlər ki, ölkəmizlə bağlı bu məsələdə ən böyük pay Rusiyanındır. Müharibə və tətbiq edilən sanksiyalar nəticəsində bu ölkədə yaşayan soydaşlarımızın da qazancı azalır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Mərkəzi Bankının statistikasına görə, ötən ilin yanvar-iyun aylarına nisbətən Azərbaycana pul köçürmələri 2 dəfə və ya 1 milyard 327 milyon manat azalıb. Hesabat dövründə Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 1 milyard 299.9 milyon manat vəsait daxil olub. Bu rəqəm 2022-ci ilin eyni dövründə 2 milyard 627 milyon təşkil etmişdi. Rəqəmlərdən də göründüyü kimi köçürmələrdə azalmalar baş verib. Bəs bunun səbəbi nədir?

### KÖÇÜRMƏLƏRİN AZALMASI GÖZLƏNİLƏN İDİ

İqtisadçı Rəşad Həsənovun sözlərinə görə, əslində köçürmələrin azalması gözlənilən idi. Çünki keçən il proses düzgün getmirdi: "2022-ci ildə bu istiqamətdə anomaliya baş verib. Yəni, birdən-birə köçürmələr 2-3 dəfə artmışdı. Bu vəziyyət Rusiya-Ukrayna münaqişəsi fonunda həm azərbaycanlıların, həm də qeyri-rezidentlərin hansısa formada ölkədən pul çıxarması cəhdləri nəticəsində yaranmışdı. Azərbaycana göndərilən remitensilərin təxminən 60-70 faizi Rusiyanın payına düşür. Normalda əksinə, bu istiqamətdə azalma olmalı idi. Çünki Rusiya iqtisadiyyatı zəifləyib və rubl dəyər itirir. Rublun dəyərdən düşməsi fonunda orada yaşayan Azərbaycan vətəndaşlarının da imkanları məhdudlaşır. Bununla da Azərbaycana köçürmələrdə problemlər yarandı. İkinci məsələ rublun məzənnəsi ilə əlaqəlidir. Ötən il gözlənilmədən rublun məzənnəsində möhkəmlənmə baş verdi. Bu da rubla gəlir əldə edən Rusiyada yaşayan azərbaycanlıların köçürdükləri vəsaitin daha dəyərli olmasına gətirib çıxarırdı. Bu il isə proses tərsinə gedir. Bu dəfə Azərbaycana köçürülən vəsaitlər daha dəyərsiz şəkildə öz əksini tapır".



Rəşad Həsənov

## CİBDƏ GƏTİRİLƏN PULLAR



R.Həsənov bildirdi ki, keçən il rəqəmlərin böyük olmasının səbəblərindən biri pulların artıq daha leqal yollarla ölkəyə gətirilməsidir: "Rəsmi rəqəmlərlə Azərbaycanda ailə təsərrüfatlarına il ərzində təxminən 1-1,5 milyard dollar ətrafında pul köçürmələri gəlirdi. Keçən il bu köçürmələrin birdən-birə yüksəlməsi ailə təsərrüfatlarının gəlirlərinin artmasına, alıcılıq qabiliyyətinin yüksəlməsinə səbəb olmuşdu. Amma dəqiq bilmirik, bu gəlir birbaşa ailə təsərrüfatlarına çatıb, yoxsa yox. Çünki artıma pulun Rusiyadan çıxarılması cəhdləri də daxil idi. 2022-ci ilin əvvəlindən Rusiya-Ukrayna müharibəsi fonunda hazırlanan proqnozlar əsasən remitensilərin azalması istiqamətində idi. Quru sərhədi ilə səyahətlərin məhdudlaşması cibdə gətirilən pulların da azalmasına səbəb olub. Pullar məcburən transfer olunur, köçürmələr şəklində əksini tapırdı".

### BƏZİ REGİONLAR PROSESDƏN ƏZİYYƏT ÇƏKİR

İqtisadçının fikrincə, Rusiyada daha çox sakini işləyən rayonlar bu proses mənfi təsir göstərib: "Köçürmələrin azalması regionlarda fərqli formada əks olunur. Rayonları müqayisə edəndə görə bilərik ki, cənub bölgəsi - Lənkəran iqtisadi rayonunda əhalinin imkanlarının məhdudlaşmasında bu, özünü daha kəskin şəkildə göstərir. Tovuz, Qazax, Şəmkir rayonlarında yaşayan əhalinin ailə təsərrüfatlarının gəlirlərində remitensilərin payı çoxdur deyə, orada da vəziyyət kəskindir. Amma Şirvan bölgəsinə baxanda orada həyat tərzinə o qədər də ciddi təsir göstərmir".

### İQTİSADİYYATIMIZA DƏYƏN ZİYAN

Ekspert dedi ki, ölkəmizə pul köçürmələrinin azalması hələ uzun müddət davam edəcək: "Pul nə qədər az gəlirsə, bu, tədiyyə balansına mənfi təsir göstərir. Düzdür, bizdə istənilən halda profisit olur. Amma bu proses profisitin həcminə də mənfi təsir göstərir. Bu pullar eyni zamanda bazarda xərclənir. Sərhədlər açılandan sonra imkanlar yenidən yaranacaq. Eyni zamanda, Rusiya iqtisadiyyatının indiki şərtlər daxilində özünə gəlməsinin məhdudluğu da prosesin davam etməsi ilə bağlı çağırışlar yaradır".



## İQTİSADİ BÖHRANLARIN YARATDIĞI PROBLEM

İqtisadçı Eldəniz Əmirov isə düşünür ki, digər ölkələrdən gələn pul köçürmələri azalsa da, Rusiyadan olan köçürmələrdə heç bir problem yoxdur: "Xaricdən Azərbaycana pul köçürmələrinin azalmasının əsas səbəbi dünyada baş verən iqtisadi təlatümlərdir. Bu təlatümlər həmçinin xaricdə yaşayan azərbaycanlıların fəaliyyətlərinə də mənfi təsir göstərib. Bu da ölkəyə pul köçürmələrinin həcminə təsir edib. Digər ölkələrdən pul köçürmələrinin həcmində azalma olsa da, Rusiyadan Azərbaycana köçürmələrdə artımlar olub. Ukrayna ilə müharibədən dolayı Rusiyadan bir çox ölkələrə kapital axını, vəsaitlərin yatırılması hesabına pul köçürmələrində artımlar baş verib".

### MƏNFİ TƏSİRLƏRİ QAÇILMAZ OLACAQ

E.Əmirov qeyd etdi ki, bu proses Azərbaycandan xaricə olan pul köçürmələrinə də mənfi təsir göstərəcək: "Rusiyadan da Azərbaycana pul köçürmələrinin həcmi getdikcə azalacaq. Həmçinin, digər ölkələrdən də köçürmələrin həcmində azalma baş verəcək. Bu proses hazırda dünyanı caynağına keçirmiş iqtisadi təlatümlər sovrulana qədər davam edəcək. Nə qədər ki inflyasiya davam edəcək, iqtisadi böhranın təsirləri real şəkildə azalmayacaq. Köçürmələr azala-azala gedərsə, təbii ki, mənfi təsirlər də qaçılmaz olacaq. Amma xaricdən pul köçürmələri azalırsa, eyni zamanda Azərbaycandan da xaricə pul köçürmələrində azalmalar baş verəcək".



Eldəniz Əmirov

# REPETİTORLAR DA QİYMƏTLƏRİ QALDIRIB?



**Repetitorların qiymətləri şəhər, şəhərətrafı rayonlar, bölgələr, kəndlərə görə dəyişir. Şəhərin mərkəzində yaxşı repetitorun aylıq qiymətləri ötən il 100 manatdan başlayırdısa, bu il minimum 200 manatdır. Şəhər mərkəzinə yaxın yerlərdə minimum qiymət isə 70-80 manatdır. Ötən il 50 manatdan başlayırdı.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yeni tədris ili artıq başlamaq üzrədir. Tələbə adını qazanmaq istəyən şagirdlər ötən aydan repetitor yanına getməyə başlayıblar. Lakin valideynləri narahat edən nüanslar müşahidə olunur. Redaksiyamıza yeni tədris ilində repetitorların qiymətləri qaldırması ilə bağlı məlumatlar daxil olub. Bəs bu məlumatlar nə dərəcə doğrudur? Həqiqətən qiymətlərdə dəyişiklik varmı?

**ƏVVƏL 100 MANAT İDİ, İNDİ 180...**

***Pərvanə xanımın*** qızı 11-ci sinifdə oxuyacaq. O, övladının yaxşı təhsil alması üçün 9-cu sinifdən repetitor yanına qoyub. İki il mütəmadi olaraq eyni qiymətləri ödəsə də, bu il fərqli qiymət cədvəli ilə qarşılaşıb: "Qızımın Azərbaycan dili və ədəbiyyatı fənni hazırlığı üçün ötən il ayda 100 manat ödəyirdim. Yeni mövsümdən müəllimi qiymətlərin 180 manat olduğunu bildirdi. Üstəlik, tək bu deyil, digər fənlər də qiymətləri minimum 40-50 manat qaldırıb".

***Fəridə xanımın*** oğlu da tələbə adını qazanmaq üçün repetitorla hazırlaşır. O da qiymətlərin ötən illə müqayisədə artdığını bildirir: "Sanki bütün repetitorlar sözləşir, qiymətləri eyni anda qaldırırlar. Oğlum beş fəndən hazırlığa gedir. İnformatika və riyaziyyat müəllimi digər fənlərə nisbətən ötən il də baha hazırlaşdırırdı. Bu il qiyməti daha da "dəyərləndirdilər". Digər fənlərdə də artım var. 80 manata hazırlaşdıran müəllim 100, 50 manata hazırlaşdıran isə 80 manat istəyir. Bütün fənlər üzrə hazırlıq qiymətləri qalxıb. Bəziləri 20-30, bəziləri də 50 manat qaldırıb. Müəllimlər yaxşı olduğu üçün imtina edə bilmirik".

Adının açıqlanmasını istəməyən, repetitorluqla məşğul olan müəllim isə deyir ki, qiymətlər bazarın tələblərinə uyğundur: "Hər qiymətə hazırlaşdıran repetitor tapmaq mümkündür. Təbii ki, kimə tələbat çoxdursa, o da qiyməti qaldırır".

## REPETİTORLAR HAVA, SU KİMİ LAZIMDIR?

Mütəxəssis vurğulayır ki, repetitorlara hər yerdə ehtiyac var. Amma bunun hava, su kimi lazımlılığını təbliğ etdikdə, süni qiymət artımı kimi nüanslar ortaya çıxır: "İstər sosial şəbəkələrdə, istərsə də cəmiyyətdə media, istərsə də cəmiyyətdə repetitorluğa qarşı narazı ifadələr eşitmişik. Amma birmənalı pisləyən fikirlərin heç biri bu xidmət sahəsinin mahiyyətini aşağılamaq üçün deyilmir. Hamı anlayır ki, bəzi situasiyalar var ki, orada əlavə öyrətmə xidmətindən istifadə vacib və zəruri ola bilər. Necə ki, dünyanın təhsil baxımdan inkişaf etmiş ölkələrində də bu metoddan istifadə edilir. Əmin olun, narazılıq dolu ifadələr yalnız və yalnız repetitorluğun Azərbaycan modelinə olan münasibətə görədir. Bizdəki repetitorluq institutu özünü insanlar üçün az qala, hava-su funksiyası kimi təqdim edir. Yəni, repetitorlar olmasa, təhsilimizin heç bir inkişafı ola bilməz. Şagird heç bir nəticə qazanmaz. Bəli, bugünkü məktəb mühiti şagirdi universitetə hazırlaya bilmir. Amma onu bu hala salan həm də repetitorlar olmadımı?"

## QİYMƏTLƏR NƏ QƏDƏR ARTIB?

Repetitorların qiymətləri şəhər, şəhərətrafı rayonlar, bölgələr, kəndlərə görə dəyişir. Şəhərin mərkəzində yaxşı repetitorun aylıq qiymətləri ötən il 100 manatdan başlayırdısa, bu il minimum 200 manatdır. Şəhər mərkəzinə yaxın yerlərdə minimum qiymət isə 70-80 manatdır. Ötən il 50 manatdan başlayırdı.

Şəhərdən kənarda, Bakı kəndlərində də qiymətlərdə artım müşahidə olunur. Məsələn, Binə kəndində 30 manata hazırlaşdıran müəllim, bu il 50 manata razılaşır. Burada da yaxşı repetitorun qiyməti 70 manatdan başlayır. Ötən il isə bu rəqəm 50 manat idi.

Rayonlarda qiymətlər 30-40 manatdan başlayır. Repetitorlar burada da qiymətləri minimum on manat qaldırıblar.

Müşahidə olunan acınacaqlı tendensiyalardan biri də Elm və Təhsil Nazirliyinin sertifikasiya imtahanından keçən müəllimlərin qiymətləri artırmasıdır. Yəni sertifikasiyadan keçən müəllimlər "bahalı" müəllimlər hesab olunurlar. Hələ yüksək bal toplamısansa, bu statusla istədiyin qiyməti tətbiq edə bilərsən. Ümumiyyətlə, repetitorlar qiyməti nəyə əsasən təyin edirlər?

Təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri deyir ki, ali məktəblərə qəbul üçün hazırlanan testlər təhlil edilib və məlum olub ki, onlar xüsusi istedadlı şagirdlər üçündür. Mütəxəssisin fikrincə, məhz yuxarıdakı səbəblərə görə, repetitorlar onlara yaranan tələbatdan istifadə edərək süni qiymət artımına əl atırlar: "Əlbəttə, xidmət sahəsi olduğundan hər kəs hər hansı məbləği təyin etməkdə sərbəstdir. Amma marketinq etikası anlayışı var ki, orada müştəri kütləsinin maddi durumu nəzərə alınmalıdır. Təəssüf ki, bizdə bu tendensiya tam əksinədir. Bu il göstəriciləri yaxşı olan repetitor gələn il üçün hazırlığın qimətini artırır".



Elmin Nuri

**REPETİTORLAR VERGİ ÖDƏMƏLİ VƏ HESABAT VERMƏLİDİRLƏR**

Ekspert bildirir ki, atılması vacib olan ilk addım repetitorluğun məktəb üzərindəki hegemonluğunu yox etməkdir: "Dünyanın bir çox ölkələrində repetitorluq xidmətinə rast gəlmək mümkündür. Amma bunu leqallaşdırmaq lazımdır. Ən vacib məsələ isə məktəb mühitini repetitorluğun kölgəsindən xilas etməkdir. Əks halda, biz gələcəyin uğurlu təhsilinə ümid edə bilmərik. Bunun üçün xüsusi proqram hazırlanmalı, bir neçə il üçün pilot məktəblər seçilməli, repetitorların xidmətini oradakı müəllimlər həyata keçirməlidirlər. Bundan əlavə, repetitorlar sahibkar kimi vergi öhdəçiliyinə cəlb edilməlidirlər".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2316
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ROMANTİK MUSİQİNİN İSTİNAD YERİ





Görkəmli macar bəstəkarı və pianoçusu Ferens Listin irsi onun Budapeştdəki ev muzeyində xüsusi həssaslıqla qorunur. Pillələri qalxan ziyarətçiləri muzeyin qapısında bəstəkarın böyük portreti qarşılayır. Eksponatlar ev-muzeyin orta otağında və birinci mərtəbədəki foyedə nümayiş etdirilir. Ziyarətçiləri hər otaqda bəstəkarın musiqisi müşayiət edir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Ferens List adına Hava Limanına xoş gəlmisiniz!" Macarıstanın paytaxtı Budapeştin hava limanına enən sərnişinləri bu cümlə qarşılayır. Paytaxt sonra qonaqlarını görkəmli bəstəkarının möhtəşəm musiqisi səslənən konsert salonlarına, adını daşıyan, sənəti ilə iz qoyduğu tarixi tikililərə baxmağa, memorial muzeyinə ziyarətə dəvət edir...

Bir-birindən qədim tarixi binaların yerləşdiyi küçədə (Verosmartu 35) sarı rəngli künc binanın ikinci mərtəbədəki pəncərələrinin üstündə Bax, Motsart, Haydn, Erkel, Bethoven və List kimi məşhur bəstəkarların barelyefləri var. Görkəmli macar bəstəkarı və pianoçusu List nəinki bu binada yaşayıb, həm də şəhərdə Musiqi Akademiyası qurub. Bina 1879-cu ildə Listin səyi ilə yaradılmış Macarıstan Musiqi Akademiyası üçün tikilib. Bəstəkar bu akademiyada milli musiqi kadrlarının yetişməsi üçün gecə-gündüz çalışıb.

Listin ölümündən sonra Konservatoriya üçün yeni bina tikilib, köhnəsi isə tamamilə Ferens List İrsini Öyrənmə İnstitutuna verilib. Böyük bəstəkar ömrünün son 6 ilini akademiyanın prezidenti və professoru olaraq bu binanın 1-ci mərtəbəsində yaşayıb. 1986-cı ildə - Ferens Listin ölümünün 100-cü ildönümündə muzey bu evdə fəaliyyətə başlayıb.

### ALMANLARLA MACARLARIN BÖLƏ BİLMƏDİYİ BƏSTƏKAR

Ferens List həm də simfonik şeir tərzinin banisidir. Çoxları onu alman bəstəkarı hesab edir. Çünki musiqiçi həyatının çox hissəsini Almaniya ərazisində yaşayıb və çalışıb. Ancaq buna baxmayaraq, List təkcə musiqisində deyil, həm də hər il qışı və yazını Budapeştdə keçirmək vərdişində özünü göstərən macar köklərini heç vaxt unutmayıb. Fortepiano üçün yaratdığı məşhur "Macar rapsodiyaları", "Macarıstan" simfonik əsəri bu fikrin təsdiqidir. Musiqişünaslar yazırlar ki, ümumiyyətlə, List musiqisinin ruhu, onun təravəti macar folklorundan, özünəməxsusluğu ilə seçilən milli mahnı və rəqslərdən bəhrələnir.

### İLHAMINI PLANLAŞDIRILMAMIŞ SƏFƏRLƏRLƏ KƏSMƏYİ XOŞLAMIRDI

Muzeyin girişində bəstəkarın səfər saatlarını göstərən taxta lövhə asılıb. Yaradıcı bir insan kimi List ilhamını planlaşdırılmamış səfərlərlə kəsməyi xoşlamırdı.

Pillələri qalxan ziyarətçiləri muzeyin qapısında bəstəkarın böyük portreti qarşılayır.

Eksponatlar ev-muzeyin orta otağında və birinci mərtəbədəki foyedə nümayiş etdirilir. Ziyarətçiləri hər otaqda bəstəkarın musiqisi müşayiət edir.

Muzeyə gələnlər bəstəkarın qonaq, yataq və iş otağı, eyni zamanda müvəqqəti sərgilərin keçirildiyi zalla tanış olurlar.

Muzeyin bələdçisi məlumat verir ki, Listin ölümündən sonra Budapeştdə saxladığı musiqi alətləri, kitablar və partituralar Musiqi Akademiyasına bağışlanmalı idi. Onun şagirdləri - Ödön Mihaloviç, Jeno Hubay, İstvan Toman kolleksiyaya qiymətli sənədlər qatıblar. Digər ianələr və miraslar da kolleksiyanı zənginləşdirib. Kolleksiya Musiqi Akademiyasının filialı olan Ferens List Memorial Muzeyi və Araşdırma Mərkəzi tərəfindən idarə olunur.

Qonaq otağında qədim musiqi alətlərinin kiçik kolleksiyası diqqət çəkir. Bostonda hazırlanan "Chickering" royalı 1867-ci ildə Paris sərgisində qızıl medala layiq görülüb. Öz alətlərinin qələbəsindən sonra Boston fabrikinin işçiləri pianonu Ferens Listə təqdim ediblər.



## BETHOVENİN "BÜRCÜ ALTINDA"

Ustadın yataq otağında xüsusilə maraqlı eksponatlar, məsələn, usta Bösendorferin List üçün hazırladığı unikal yazı masası maraq doğurur. Masanın orta çəkməcəsi miniatür pianodan ibarətdir. Çarpayısının üstündən asılmış Bethovenin portreti qarşısında hər kəs ayaq saxlayır. Nadir fotonun maraqlı tarixçəsini bələdçi danışır: "Bu foto Listin uşaqlığının ən parlaq xatirəsidir. O, heç vaxt bu portretdən ayrılmadı və onu özünün qoruyucu mələyi hesab edirdi. Çünki List hələ uşaqlıqdan Bethovenlə görüşməyi xəyal edirdi. Bəstəkar sonralar xəstə olan Bethovenin onun konsertinə necə qatıldığını xatırlayırdı. Bethoven ona haqqında möcüzələr danışılan oğlanla - vunderkind uşaqla nəhayət, görüşməyə razılaşır. Onda Listin 11 yaşı vardı və o, artıq konsertlər verir, improvizator kimi istedadı ilə unudulmaz təəssüratlar yaradırdı. "Bethoven yanıma gəldi, əyildi, əlini başıma qoydu, bir neçə dəfə saçlarımı sığalladı və pıçıldadı: "Budur, bir improviza! Siz şanslısınız və başqalarını xoşbəxt edəcəksiniz. Bundan yaxşı, daha gözəl heç nə yoxdur". Uşaq bu öpüşü xeyir-dua kimi qəbul edir. List həmişə Bethovenin "bürcü altında" doğulduğuna inanırdı". Bəstəkarın çarpayısının yanında dua skamyası da var.

Həyatının son mərhələsində Listin taleyində gözlənilməz dönüş baş verib. O, 1865-ci ildə Romada dini həyata meyl edərək rahib rütbəsini qəbul edib. Lakin musiqidən də uzaqlaşmayıb, yaradıcılıq yolunu davam etdirib.

### MƏHZ BU ƏLİN YARATDIĞI MUSİQİLƏR...

Muzeyin birinci mərtəbəsindəki foyedə də nadir eksponatlar yer alıb. "Listin əli" muzeyin ən qiymətli əşyalarından biridir. Məhz bu əlin yaratdığı musiqilər bütün dövrlərin möcüzəvi musiqisi hesab edilir. Hər şənbə günü bəstəkarın mənzilinin yanında yerləşən orkestr zalında ziyarətçilər üçün səhər konsertləri keçirilir. Listin etüdlərini, konsertlərini, sonatalarını çalmağı hər pianoçu özünə böyük şərəf bilir.

Bələdçi deyir ki, muzeyin kolleksiyasına vaxtaşırı müxtəlif sərgilərdə nümayiş etdirilən Ferens Listə aid sənədlər bağışlanır: "Ferens List Memorial Muzeyinin ekspozisiyası tədqiqatçılar üçün açıqdır və binada fəaliyyət göstərən kitabxana onların işinə öz töhfəsini verir. Buradakı kitablar, əlyazma və partituraların hər biri "List əmlakı" kimi qeyd olunur və xüsusi olaraq qorunur, çünki onların bir çoxunda Listin orijinal qeydləri və yaxud onun dostlarının ithafları var. Bu nadir və qiymətli əşyaların bərpası uzun illərdir ki, davamlı olaraq aparılır". List sənəti və irsi bu günədək öz yüksək bədii dəyərini itirməyib və romantik musiqinin ən parlaq səhifəsi olaraq qalmaqdadır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# NƏ O GƏLİR VAR, NƏ DƏ O YATIRIM




**Bir zamanların ən gəlirli biznes sahələrindən hesab olunurdu. Lakin pandemiya və ondan sonrakı dövrdə dəyişən toy adət-ənənələrimiz bu sahəni də "vurdu". Söhbət bəy-gəlin maşınları bazarından gedir.**

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Məhərrəm ayından sonra yeni toy mövsümü başlamaq üzrədir. Toyun əsas atributlarından biri də dəbdəbəli bəy-gəlin maşınlarıdır. Maraqlıdır, yeni toy mövsümündə bir dövrlərin gəlirli biznesi hesab olunan bəy-gəlin maşınları bazarında vəziyyət necədir? Dəbdəbəli toyların azalması bu biznesə necə təsir edib?

### "GƏLİRLƏRİMİZ 60 FAİZ AZALIB"

Bəy-gəlin maşını kirayəsi ilə məşğul olan Hidayət Əliyev "Kaspi"yə açıqlamasında bildirdi ki, pandemiyadan öncəki dövrlə müqayisədə gəlirləri 60 faizə yaxın azalıb. Həmsöhbətimizin sözlərinə görə, əvvəllər 1 ayda 15 toy sifarişi olurdusa, indi maksimum beş-altı sifariş alır: "Bazarda durğunluqdur. Toyların azalması bizim biznesə də mənfi təsir edib. Elə maşın var ki, aylarla sifariş edilmir. Sifarişlər avtomobillərin modelindən asılıdır. Bu gün ən çox tələbat "Mercedes-Benz"-in "S-class" və "Gelandewagen" modelləridir. Digərlərinə tələbat azdır".

### "ƏVVƏLLƏR BU SAHƏYƏ MARAQ ÇOX İDİ"

Ümumiyyətlə, bəy-gəlin maşını biznesi bir dövrlərin ən gəlirli sahələrindən hesab olunurdu. Müsahibimiz deyir ki, artıq nə o gəlir var, nə də yatırım: "Tələbat azalıb, qiymətlər düşüb. Üstəlik, maşınların xərcləri də artıb. Benzin, ehtiyat hissələri, maşının öz qiyməti çox bahadır. Gələn gəliri maşının bəzəyinə, sürücüsünə, öz xərclərinə verdikdə, çox az qazanc qalır. İndi maşın xərcləri və qiyməti ilə müqayisədə əvvəllər 150 manata getdiyimiz sifarişi 250 manata getməliyik, amma 100 manata razılaşırıq. Əvvəllər bu sahəyə maraq çox idi. Hər kəs gəlir mənbəyi kimi baxırdı. İndi elə deyil. Hazırda bu biznesi lap əvvəldən quranlar əsas sifarişlərini götürür, çatdırmadıqda kiməsə ötürürlər. Bu da nadir hallarda olur".

### "ÜÇ AVTOMOBİLDƏN BİR MAŞININ QAZANCINI GÖTÜRÜRƏM"

Şəhərdə sərgilənən maşınların azalmasına gəldikdə isə, həmsöhbətimiz deyir ki, səhərdən axşama qədər maşının yanında dayanıb sifariş gözləməyə dəymir: "Maşının yanında sifariş gözləyərkən hər gün on manat yeməyinə, maşının saxlanmasına pul ödəyirsən. Ay ərzində 300-350 manat xərcin çıxır. Bu da sərfəli deyil. Amma əvvəllər belə deyildi. Məsələn, mənim üç maşınım varsa, birinin gəlirini maşınların xərclərinə verir, iki maşından gələn gəliri qazanc götürürdüm. İndi üç avtomobildən, əvvəl bir avtomobildən aldığım qazancı götürürəm".

### "BU BİZNESƏ GƏLƏNLƏR UDUZUR"

H.Əliyevin sözlərinə görə, hazırda bu biznesə gələnlər uduzur: "Sırf bu biznesə görə maşın almaq sərfəli deyil. Çünki maşına çəkdiyin xərci çıxarmaq üçün indiki templə 15 il vaxt lazımdır. Amma əvvəllər maşını alırdın, üç-beş ilə xərclədiyin pulu çıxarırdın. İndi yüz minə aldığın "Gelandewagen"ə yüz manata sifariş götürürsən, iyirmi manat benzini, iyirmi manat bəzəyi, otuz manat sürücüyə verdikdə, qırx manat gəlir qalır. Aya on toya gedəndə 400 manat edir. 400 manatla bunu necə ödəmək olar? Məsələn, mən əvvəl aya min manat qazanırdımsa, indi 600 manat az qazanıram. Bu qədər fərq edir".







## "BƏY-GƏLİN MAŞINI" BAZARINDA QİYMƏTLƏR...

H.Əliyev deyir ki, yeni model maşınlar daha çox sifariş olunur: "Sifarişlərin çoxluğu maşının ili, modeli, qiymətindən asılıdır. Məsələn, 2006-cı ilin "S klass"ları ay ərzində yeddi-səkkiz toya gedir, ili təzə olanlarda isə bu rəqəm 15-dir. Qiymətlər altmış-yetmiş manatdan başlayır, min manata qədər artır. Köhnə "S klass"lar 100 manata, yeni modelləri 200-220 manata icarəyə götürülür. "Chrysler" 70-80 manata, "Rolls-Royce" isə 600-1000 manata gedir. Maşını sürücü yox, bəy sürərsə, kirayəsi 120 manat olan maşın 150 manata verilir. Ümumiyyətlə, bəy-gəlin maşını biznesinin ən qızğın dövrü məhərrəmlikdən, orucluqdan 1 ay öncə və 1 ay sonra olur. May ayında isə, maksimum 2-3 toy olur. Bu biznes sahibləri məhz saydığım dövrlərdə daha yaxşı qazanırlar".

### RETRO MAŞINLARA MARAQ ARTIB

Retro maşınların da sifarişləri dəbdədir. Həmsöhbətimiz deyir ki, hazırda bazarda "Volqa"lar var ki, kirayəsi 100-150 manat arasında dəyişir: "1960-cı illərin maşını olan "Qaz-21" bəzəyi, benzini, sürücüsü ilə birlikdə 120-150 manata başa gəlir. Retro maşınlardan ən bahalısı "Çayka"dır. "Çayka"nın kirayəsi 500 manatdır. Lakin o maşınları tapmaq çətindir. Bakıda 2-3 "Çayka" var. Onlar xarab olduqda ehtiyat hissələrini tapmaq çətin olduğu üçün bazardan çıxırlar".

### TOY BİZNESİNİN ƏN UĞURLU VƏ DURĞUN DÖVRÜ

Bəy-gəlin maşını icarədarı Sahib Paşayev isə fərqli düşünür. Pandemiyadan öncə və sonra gəlirlərində heç bir fərq olmadığını deyir: "Toy biznesinin də gəlirli və durğun vaxtları olur. Yaz, yay və payız ayları toyun ən qızğın dövrləridir. Orucluq və məhərrəmlikdə toylar azalır, amma tam dayanmır. Qəbələ, Zaqatala, Qazax, Balakən, Tovuz bəzən də Gəncədə bu dövrdə də toylar olur. Qış ayları isə bu biznesin ən durğun dövrüdür. Amma ümumilikdə, qazancımızda ciddi dəyişiklik yoxdur".

### BƏY MAŞINI ÖZÜ SÜRƏRSƏ...

Qiymətlərə gəldikdə isə, icarədar deyir ki, qiymətlər məsafədən və maşının modelindən asılıdır: "Müəyyən bahalı maşınlar var ki, məsələn, "Rolls-Royce", şəhər daxilində qısa məsafəyə 700 manat, uzaq məsafəyə 1500 manat, rayona getdikdə isə, təbii ki, kilometrə görə əlavə pullar alınır. Qiymətlər bəzək və şərtlərdən asılıdır. Məsələn, fotosessiyaya getmək, maşını gec saatlarda qaytarmaq əlavə puldur".

## "MƏHƏRRƏM AYI BİTMƏMİŞ YEDDİ-SƏKKİZ SİFARİŞİM VAR"

Həmsöhbətimiz deyir ki, hələ məhərrəm ayı bitməmiş yeddi-səkkiz sifarişi var: "Çox maraqlıdır, bu il toya maraq çoxdur. Əvvəllər adətən, yeni mövsüm başlayandan bir-iki gün qabaq sifarişlər gəlirdi. Bir ay öncədən artıq yeddi-səkkiz sifarişimiz var".

S.Paşayev də yeni gələnlər üçün bu biznesin hazırda əlverişli olmadığı fikrini təsdiqləyir: "Bəzi şirkətlər insanları şirnikləndirirlər ki, "Maşın al, sənə çoxlu toy sifarişi verəcəm". İnsanlar da düşünür ki, qaz vurub, qazan dolduracaqlar. Təbii ki, toylar əvvəlki kimi deyil. Şirkət ancaq toya sifarişi çatdırmasa, digərlərinə müraciət edir. Heç kim öz çörəyini sənə verməz. Ona görə də biznesə yeni qoşulanlarda uğurlu alınmır. Amma bu işlə uzun illərdir məşğul olanlarda, bazarda oturuşanlarda qazanc orta hesabla eynidir".

# SAÇIMIZ TÖKÜLÜRSƏ, NƏ EDƏK?

**Dermatoloq Vaqif Abdullayev:** “Gün ərzində 60-a qədər saç tökülməsi normal sayılırsa, 100-200 tökülmə artıq ciddi problem göstəricisidir. Əgər saç tökülməsi normadan çoxdursa, 2 aydan çox davam edirsə, mütləq həkimlə məsləhətləşmək lazımdır”.



AYGÜN ASİMQIZI



Saç tökülməsi problemi ilə üzləşən xanımların sayı getdikcə artır. Kimi bu problemdən çıxış yolu olaraq müxtəlif şampunlar alır, kimi vitamin kompleksləri ilə həll etməyə çalışır, kimi maskaları yoxlayır və s. Uğurlu alınanı da olur, cəhdləri nəticəsiz qalanı da. Bəzən deyirlər ki, saç daranması indi azdır, ona görə saç tökülməsi çoxdur. Niyə bu problem artıb? Həlli üçün nələr etməliyik?

Dermatoloq Vaqif Abdullayev ilk olaraq bildirdi ki, saçı darayanda, dartanda, 7-8 tel düşürsə, bu, norma daxilindədir. 15-20-dirsə, problemdir. Gün ərzində 60-a qədər saç tökülməsi normal sayılırsa, 100-200 tökülmə artıq ciddi problem göstəricisidir. Ciddi problemlə üzləşənlərin sayının bu gün çox olmasına gəlincə, V.Abdullayev dedi ki, saç tökülməsinə təsir edən faktorlar artıb: “Əslində, əvvəllər də insanlarda saç tökülməsi halları olub. Təbii ki, indiki qədər deyildi. Ona görə müasir zamanda saç tökülmə problemi ilə müraciət edənlər də çoxdur”.

### “DARAMAMAQ SƏBƏB DEYİL”

V.Abdullayev faktorların fərqli və çox olduğunu dedi: “Autoimmun xəstəliklər, hormonal balansın pozulması, infeksion xəstəliklər, stress, bəzi mikroelementlərin çatışmazlığı və s. ola bilər. Məsələn, sink, dəmir çatışmazlığı da saç tökülməsinə yol açır. Urbanizasiyanın təsirindən yetəri qədər mikroelement, vitamin qəbul edə bilməyən insanlar var. Bu da təsirini göstərir. COVİD-19-dan sonra saç tökülmələri çox artıb. Saç diblərinə zərər vuran formada hörük, saç yığımları olarsa, onun da təsiri ola bilər. Saç tökülməsi problemi yaşayanların çoxu heç də onları edənlər deyil. Çünki o cür yığımlar, indi dəbdə deyil”.

Qadınların saç daraması hallarının azalmasının təsirinə gəlincə, V.Abdullayev bununla bağlı hər hansı elmi araşdırma olmadığını dedi: “Saçı daramamaq saçın tökülməsinə təsir edən ciddi faktor deyil. Düzdür, daranma özü də bir masaj kimi dərinin mikrosirkulyasiyasına müsbət təsir göstərir. Masaj zamanı damarlar daha çox genişlənir, saç kökünə daha çox qan gəlir. Saç kökləri daha yaxşı qidalanır. Müsbət effekt verir. Ancaq demək olmaz ki, saçların tökülməsində az daranması, yaxud daranmaması səbəbdir”.

### MÜALİCƏVİ ŞAMPUNLAR HƏLL YOLUDUR?

Dermatoloqun sözlərinə görə, səbəbini bilmədən tətbiq etdiyimiz həll yolu nəticə verməyəcək: “Adam var ki, hansısa vitamini qəbul edir, saç tökülməsi dayanır. Sonra hamıya məsləhət görür ki, mən bunu etdim, düzəldi. Rəfiqəsi də edir, amma onda nəticə uğurlu olmur. Çünki problem eyni olsa da, səbəb fərqlidir. Deməli, rəfiqəsində səbəb başqadır. Onu tapmaq lazımdır. Boşuna vitamin qəbul etməyin faydası olmayacaq. Bəzən adam çox stress keçirir, hər bir məsələyə baxır, amma səbəbin stressi ilə bağlı olduğunu düşünmür. Bu diaqnozu da özü qoymamalıdır. Ola bilər adam stressə bağlayar, amma hansısa daxili problemlə bağlı olar. Diaqnozu mütəxəssis qoymalı və ona uyğun tədbirlər görülməlidir”. Şampunların effektinə inananlar da var. V.Abdullayev deyir ki, müalicəvi şampunlar var. Onlar da bütün növ saç tökülmələrində effektli olmur: “Müalicəvi və kosmetik şampunlar var. Kosmetik şampunlar güclü effektə malik deyil. Yuyucu vasitə kimi rahat istifadə edilə bilər. Müalicəvi şampunlara gəlincə, tibdə onların effektinə inanan da var, inanmayan da. Bu da problemə görə dəyişir. Daxili orqanlara bağlı problemdirsə, bu zaman rolu olmayacaq. Ancaq saç dərisi kimi məsələyə bağlıdırsa, o zaman effekt göstərə bilər. Müalicəvi şampunlar da yalnız həkimlər tərəfindən təyin olunmalıdır”.



Vaqif Abdullayev

## “QİDALANMA DÜZGÜN OLMALIDIR”

V.Abdullayev bildirdi ki, saç dərisinə qulluğu unutmamalıyıq: “İllər öncə ilə müqayisə etsək, bu gün xanımlarımızın saça qulluq faizi çox artıb. 30-40 il əvvəl insanlar saçlarına daha az fikir verirdilər, nəinki indi. Necə ki, üz dərisinə, dırnaqlara qulluq edilir, saçlara da qulluq etmək lazımdır. Düzgün şampunlardan, yuyucu vasitələrdən istifadə etmək lazımdır. Yağlı saçlardırsa, yağlı saçlar üçün olan şampunlardan istifadə edilsin. Quru saçları yağlı saçlar üçün olan şampunlarla yuduqda, saçların daha çox quruması müşahidə olunacaq. Daha çox ziyan görəcək”.

Mütəxəssis bildirdi ki, sağlam saçlarımız olması üçün qidalanmaya xüsusi diqqət etməliyik: “Qidalanma düzgün, rasionumuz vitaminlərlə, mikroelementlərlə zəngin olmalıdır. Tək “fast-food”larla qidalanan adamın dərisi də, saçı da düzgün qidalanan insanın saçından, dərisindən fərqlidir. Spirtli içki, siqaret saçlara mənfi təsir göstərir. Saçların sağlam olmasını istəyirsinizsə, mütləq qidalanmaya fikir verin. Gün ərzində 2 litr su içməyi unutmayın”.



## “İKİ AYDAN ÇOX DAVAM EDİRSƏ, MÜTLƏQ...”

Saç boyalarının təsirinə gəlincə, dermatoloq qeyd etdi ki, bu məsələdə ümumiyyətlə, diqqətli olmalıyıq: “Perekis tərkibli saraldan boyalar saçları çox zədələyir. Saçların diametrində incəlmələr müşahidə olunur. Saçın uzanmasına təsir göstərə bilir. Tünd rəngli saç boyalar isə tərkibində kanserogen maddələr çox olduğu üçün əksər hallarda bir çox ölkələrdə qadağan olunmaq üzrədir. Xərçəng yaratma riskləri yüksəkdir”.

Həkim sonda qeyd etdi ki, əgər saç tökülməsi normadan çoxdursa, 2 aydan çox davam edirsə, mütləq həkimlə məsləhətləşmək lazımdır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
9 SENTYABR ŞƏNBƏ 2023
www.kaspi.az

## HEYƏTLƏR VƏ MÖVCUD DURUMLAR


CANNİ DE BYAZİ

Belçika millisi Bakıya yenilənmiş heyətlə gəlib. Komandanın baş məşqçisi Domeniko Tedesko bu qarşılaşma üçün 24 futbolçuya ehtiyac duyub. Onların arasında zədədən əziyyət çəkən iki lider oyunçu yoxdur. Söhbət “Real Madrid”in qapıçısı Tibo Kurtua və “Mançester Siti”nin yarımmüdafiəçisi Kevin De Bruynedən gedir. Heyətdə Yan Vertongen kimi illərin təcrübəsinin olmasına baxmayaraq, oyunçuların bir çoxu gənclərdir. Belçika Bakıya bu heyətlə gəlib: Amen Əl-Dahil, Arnaud Bodart, Olivye Deman, Tomas Kaminski, Orel Manqala, Mats Sels, Yuri Tilemans, Yohan Bakayoko, Yannik Karrasko, Şarl de Ketelare, Jeremi Doku, Romelu Lukaku, Amadou Onana, Uqo Siqe, Leandro Trossard, Mişi Batşuayi, Timoti Kastan, Zeno Debast, Vout Faes, Dodi Lukebakio, Lois Openda, Artur Teat, Yan Vertongen, Kun Kastels.
Azərbaycan millisinin baş məşqçisi Canni De Byazi isə 26 oyunçuya dəvət göndərib. Millimizin Belçika ilə oyun üçün futbolçu siyahısı bu cürdür: Şahrudin Məhəmmədəliyev, Səlahət Ağayev, Yusif İmanov, Amin Seydiyev, Anton Krivotsyuk, Bəhlul Mustafazadə, Toral Bayramov, Rahil Məmmədov, Bəxtiyar Həsənalızadə, Höccət Bədəlov, Yusif Nəbiyev, Elvin Cəfərquliyev, Coşqun Diniyev, Elvin Camalov, Emil Səfərov, Emin Mahmudov, Filip Ozobiç, Rüstəm Əhmədzadə, Qismət Alıyev, Ozan Can Kökçü, Aleksey İsayev, Mahir Emreli, Ramil Şeydayev, Renat Dadaşov, Musa Qurbanlı.



# ULDUZLARSIZ BELÇİKA QARŞISINDA NƏYƏ ÜMİD ETMƏK OLAR?

De Bruyne və Kurtua kimi adlar Bakıda meydana çıxmayacaqlar. Azərbaycan millisinin evdə oynadığını, rəqibin artıq əvvəlki qədər qorxulu olmadığını nəzərə alsaq, Belçikanı növbəti dəfə büdrətmək mümkündür.


FAİQ TAHİROV

Azərbaycan millisi sentyabrın 9-da AVRO-2024-ün seçmə qrup mərhələsində növbəti oyununu keçirəcək. Yığma komanda Mərdəkandakı “Dalğa Arena”da qrupun favoriti Belçika millisi ilə qarşılaşacaq.

### ÜÇ OYUNDAN SONRA SONUNCU PİLLƏ

Yığmamız üç turdan sonra yer aldığı F qrupunda sonuncu pillədədir. Cəmi bir xal toplayan komanda iki qol vurub, öz qapısında isə səkkiz top görüb. Milli ilk oyununda səfərdə Avstriyaya 1:4, ikinci matçda rəqib meydanında İsveçə 0:5 məğlub olub. Canni De Byazinin yetirmələri yeganə xalı Bakıda Estoniya ilə görüşdə qazanıb. 1:1 hesablı heç-heçə başa çatan matçda millimizin heyətində Anton Krivotsyuk fərqlənib. Seçmə mərhələdə komandanın digər qoluna Emin Mahmudov imza atıb.
Əslində, Azərbaycanla birgə Estoniyanın da bir xalı var. Lakin onlarda top fərqi daha yaxşı (-4) olduğu üçün komanda dördüncü, Azərbaycan beşincidir.

### BELÇİKANIN BÖYÜK HESABLI QƏLƏBƏLƏRİ

Növbəti rəqib Belçika isə üç oyunda yeddi xal toplayıb. Komanda ilk matçda səfərdə İsveçi, üçüncü oyunda rəqib meydanında Estoniyanı eyni hesabla - 3:0 yenib. Lakin “Qırmızı iblislər” evdə Avstriyanın müqavimətini qırmağı bacarmayıblar - 1:1.
Ümumilikdə, F qrupunda Avstriya 10 xalla liderdir. Komanda rəqiblərindən bir oyun çox keçirib. Belçika ikincidirsə, İsveç üç oyunda topladığı eyni sayda xalla üçüncü pillənin sahibidir.


EMİN MAHMUDOV

## MİLLİ 12 İL ƏVVƏL BELÇİKANI BÜDRƏDİB

Azərbaycan və Belçika milliləri indiyə qədər dörd dəfə üz-üzə gəliblər. Bunların hamısı rəsmi oyunlar olub. İlk qarşılaşma AVRO-2008-in seçmə mərhələsində baş tutub. Brüsseldə keçirilən oyun meydan sahiblərinin böyük hesablı qələbəsi ilə başa çatıb - 3:0. Bakıdakı ikinci qarşılaşmada isə millimiz rəqibinə 0:1 hesabı ilə məğlub olub.
Tərəflərin yolu bir də AVRO-2021-nin seçmə mərhələsində kəsişib. Belçikada keçirilən ilk oyunda meydan sahibləri yenə böyük hesabla qalib gəliblər - 4:1. Yığmamızın qolunu Ruslan Abışov vurub. Bakıdakı cavab oyununda isə, nəhayət, bu rəqibdən xal almaq mümkün olub. Müdafiəçi Timmi Simonsun hesabı açdığı qarşılaşmada Rauf Əliyev 86-cı dəqiqədə fərqlənərək komandamızı məğlubiyyətdən xilas edib.


KURTUA
DE BRUYNE

### ULDUZLARSIZ BELÇİKADAN XAL ALMAQ MÜMKÜNDÜR!

Belçika qrupun favoriti hesab edilsə də, hazırkı heyət əvvəlkindən xeyli zəif görünür. Ümumiyyətlə, ölkə futbolunun “qızıl nəsli” demək olar ki, uğur qazanmadan futbol səhnəsindən çəkilib. Hazırda komanda daha çox gənclərdən qurulub. Üstəlik, daha əvvəl qeyd etdiyimiz kimi, De Bruyne və Kurtua kimi adlar Bakıda meydana çıxmayacaqlar. Azərbaycan millisinin evdə oynadığını, rəqibin artıq əvvəlki qədər qorxulu olmadığını nəzərə alsaq, Belçikanı növbəti dəfə büdrətmək mümkündür. Seçmə mərhələdəki öncəki oyunlarda qeydə alınan uğursuz nəticələrə baxmayaraq, milli toparlanmalı, meydanda sona qədər döyüşərək güclü rəqibinə “diş göstərməli”, sürpriz nəticə üçün çalışmalıdır. Belə Belçika millisi bir də ələ düşməyəcək.

# “NAR”DAN TƏHSİLƏ DƏSTƏK:
## Ən çox bal toplayan abituriyentlər mükafatlandırıldı



“Nar” 2022-2023-cü tədris ilində ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək bal toplayan ilk on abituriyenti dəyərli hədiyyələrlə mükafatlandırıb. Modern.az İnfromasiya Agentliyinin media dəstəyi ilə baş tutan layihə çərçivəsində hər bir tələbəyə “Nar”-dan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib. Mükafatlandırma tədbirində iştirak edən tanınmış dövlət və media təmsilçiləri ilin ən uğurlu abituriyentlərini təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıblar.
“Nar”ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov da gənclərə gələcək təhsil və karyeralarında uğur diləyərək bildirib: “Böyük əzm və zəhmət hesabına əldə etdiyiniz bu yüksək göstəricinizlə siz gələcək abituriyentlərə nümunə oldunuz. İnanıram ki, ali təhsil həyatınızda da biliyinizlə tələbə yoldaşlarınıza örnək olacaq və daha da böyük uğurlar qazanacaqsınız”.
Xatırladaq ki, “Nar” artıq yeddi ildir ki, ən yüksək bal toplayan abituriyentləri təhsilə daha da motivasiya etmək üçün onları bir araya gətirərək mükafatlandırma mərasimi təşkil edir. Qeyd edək ki, korporativ sosial məsuliyyət yanaşmasının bir hissəsi kimi təhsilə strateji diqqət “Nar”ın həm fərdlərə, həm də daha geniş ictimaiyyətə müsbət və davamlı təsir yaratma bağlılığını vurğulayır. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə etmək olar.

***“Nar” haqqında:***

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.